QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 166 (5886) **12 sentyabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayı durmadan artır”




5

**Bakıda “Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi” mövzusunda dəyirmi masa keçirilib**



5

**“Azərbaycan hökuməti çoxuşaqlı ailələri diqqətdən kənarda saxlamır”**



8

**MÜXALİFƏTİN QIRĞINI, YAXUD ƏN BÖYÜK QIRĞI KİMDİR?**



# "Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayı durmadan artır"

## *Prezident İlham Əliyev Rusiyanın Sverdlovsk vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycanın Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən Sverdlovsk vilayəti ilə əlaqələrinin genişlənməsinin məmnunluq doğurduğu bildirildi.

Söhbət zamanı Azərbaycanla Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin 85 faiz artması iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi, ticarət dövriyyəsinin daha da artırılması üçün lazımi potensialın mövcud olduğu vurğulandı. Eyni zamanda, Bakıda keçiriləcək biznes forumun əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu. Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayının durmadan artdığı vurğulanaraq, Sverdlovsk vilayəti ilə turizm sahəsində əlaqələrin inkişaf etdirilməsinin önəmi bildirildi. Görüşdə əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən sənaye, maşınqayırma sahələrində birgə layihələrin həyata keçirilməsi, sərmayə qoyuluşu, mədəniyyət, təhsil sahələri ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi.

# "Azərbaycanda insanları dil üstünlüyü zəminində qarşı-qarşıya gətirmək cəhdləri yoxdur"

Azərbaycanın rus dilinin qorunmasına verdiyi töhfəni Rusiyada çox yüksək qiymətləndirirlər. AZƏRTAC xəbər verir ki, bu fikri "Moskva-Bakı" portalına Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib.



M.Zaxarova deyib: "Biz Azərbaycan Respublikasının dostu olan ölkənin, xalqın dili kimi rus dilinə Azərbaycanda həm maraq, həm də həqiqi sevgi olduğunu görürük. Mənə elə gəlir ki, bu, həm də özünün bir ilham mənbəyinə olan münasibətdir. Bu cür münasibət bizim mədəniyyətlərin xüsusi vəhdəti ilə bağlıdır, o səviyyədə ki, onları ayırmaq nəinki lazım deyil, həm də zərərlidir. Dili, öz cəmiyyətini və mədəniyyətini kütləvi informasiya vasitələri ilə qarşılıqlı olaraq zənginləşdirmək isə (zənnimcə, bu, əlverişli və düzgündür), həm doğru, həm də olduqca vacibdir".

Rusiya XİN-in xüsusi nümayəndəsi Azərbaycan KİV-lərində rusdilli seqmentin bir neçə istiqamətini vurğulayıb: "Bu, rus dilində milli, habelə həmvətənlərin və bilavasitə Rusiyada qeydiyyata alınmış və Azərbaycanda müvafiq olaraq rus dilində fəaliyyət göstərən KİV-lərdən ibarətdir. Qeyd etmək istərdim ki, onlar Azərbaycan auditoriyasında böyük populyarlıq qazanıblar. Rus dilində milli kütləvi informasiya vasitələrindən və həmvətənlərimizin KİV-lərindən danışdıqda təxminən 20 nəşri və 15 informasiya agentliyini fərqləndirmək olar. Bu, yaxşı rəqəmdir və göstərilən məhsula olan tələbatın göstəricisidir".

M.Zaxarovanın fikrincə, dildən söhbət getdikdə, təəssüf ki, hər bir ölkədə həm də siyasi məqam ortaya çıxır. Çünki milli siyasət və milli mədəniyyət məsələləri də müşahidə olunur. Rusiya XİN-in sözçüsü vurğulayıb: "Müdriklik ondadır ki, siyasi aspekt də daxil olmaqla cəmiyyətdə olan bu tendensiyalar qarşı-qarşıya gətirilməsin, əksinə onların yaxınlaşması, xarakterik əlamətlərinin vəhdəti ilə məşğul olmaq mümkün olsun. Cəmiyyət, milli mədəniyyət həmişə bu xarakterik cəhətlər üzərində qurulur, yaxud onlara söykənir. Mənə elə gəlir ki, Azərbaycanda bu məsələ ilə bağlı hər şey harmonik şəkildə baş verir. Burada əks mövqe, insanların dil üstünlüyü zəminində qarşı-qarşıya qoyulması, yaxud KİV-lərin seçimində dil amilinə üstünlük verilməsi hallarıyoxdur. Əksinə, bir ahəng var. Zənnimcə bu, müdrikliyin əlamətidir, belə ki, öz informasiya, mədəniyyət məkanını zənginləşdirmək cəhdi problemlərin profilaktikası, gələcəkdə onlara yol verilməməsi imkanı deməkdir. Biz Azərbaycanın rus dilinin qorunmasına verdiyi töhfəni Rusiyada yüksək qiymətləndiririk".

## Ziya Zakir Acar: "Azərbaycanın işğal olunmuş ərazilərindəki saxta "seçkilər" sülh danışıqlarını pozmaq cəhdidir"

Ermənistan hakimiyyətinin siyasi etikadan kənar davranışları dünyadakı ikili standartların nəticəsidir. Bu vəziyyət regiondakı gərginliyi daim artırır və bunun belə davam etməsi mümkünsüzdür.



Bu fikri AZƏRTAC-a açıqlamasında İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri Ziya Zakir Acar söyləyib. O bildirib ki, sentyabrın 8-də Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "yerli özünüidarəetmə seçkiləri"nin keçirilməsi Ermənistan dövlətinin işğalçılıq siyasətinin mahiyyətini əks etdirir. Əgər dünyada ikili standartlar olmasaydı, təcavüzkar Ermənistan bu günədək işğalçılıq siyasətini həyata keçirə bilməzdi. Sözügedən "seçkilər" Dağlıq Qarabağ probleminin həlli istiqamətində Azərbaycanın cəhd etdiyi sülh danışıqlarını pozmaq üçün ortaya atılmış iyrənc bir mövzudur.

Dərnək sədri qeyd edib ki, Azərbaycanın və Türkiyənin qardaşlıq münasibətlərinin inkişafı tarixi əhəmiyyət daşıyır. Dövlətlərimiz güclərini birlikdə daim yüksəltməklə bölgədə sülhün və əmin-amanlığın təmin edilməsi istiqamətində səylərini davam etdirməlidirlər.

# Azərbaycan ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir

## *Prezident İlham Əliyev: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var!"*

Bu real həqiqətdir ki, güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Azərbaycanda milli ordu quruculuğu çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir.

Azərbaycan Milli Ordusunun bir əsrlik yaranma tarixini vərqlədikcə şərəfli zaman yaşamış ordumuzun keçdiyi yol göz önündə çanlanır. 1918-ci ildə yenicə müstəqilliyini elan etmiş Azərbaycan ilk Milli Ordusunu yaratdı və ilk milli ordu hissələrini formalaşdırmağa başladı. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz, bütün sahələrdə olduğu kimi, hərbi sahədə də ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas məsələ Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da, çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı problemlərlə müşayiət edilir, nizami orduya ehtiyac var idi. Azərbaycan xalqının tələbi ilə Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ölkədə ordu quruculuğu prosesinin başlanğıcını qoydu. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi olaraq, 1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra, ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Orduya çağırış və fərarilik halları ilə bağlı bütün problemlər həll edildi. Məhz Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.





Azərbaycan Prezidentinin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi-Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Bu gün müasir Azərbaycan Ordusu ən yüksək standartlara cavab verir. Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu siyasətinə sadiq qalaraq, Milli Ordunu regionun ən güclü ordusu səviyyəsinə yüksəldib.

### Ordu quruculuğu - son 16 illik uğurlu nəticələr

Məhz Prezident İlham Əliyevin son 16 illik uğurlu siyasətinin nəticəsidir ki, Azərbaycanın dövlət büdcəsində müdafiə xərcləri üçün nəzərdə tutulan vəsait, artıq bir neçə ildir ki, ardıcıl olaraq, Ermənistanın ümumi büdcəsindən çoxdur. Bununla yanaşı, Müdafiə Sənayesi Nazirliyində 400 addan çox müdafiə təyinatlı məmulatın istehsal olunması ölkəmizin hərbi qüdrətinin artmasının bariz nümunələrindəndir. Bu gün Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın 80 faizindən çoxu yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hazırda güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir, şəxsi heyətin döyüş ruhu yüksəkdir. Hərbi şəhərciklərin çox hissəsi yenidən tikilib və ya tam təmir edilib. Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri də, ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Bu gün orduda xidmət etməyə yaşı çatan hər bir Azərbaycan vətəndaşı könüllü olaraq, torpaqlarımızın müdafiəsi uğrunda döyüşmək əzmində olduğunu nümayiş etdirir.



### Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü göstərmiş oldu

Dövlətimizin diqqət və qayğısını, xalqın dayağını daim öz üzərində hiss edən hərbçilərimizin isə döyüş ruhu birə-beş artır. Vətən övladları sərhədlərimizin keşiyində ayıq-sayıq dayanırlar. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq, Azərbaycan və Ermənistan silahlı qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş aprel döyüşləri Azərbaycan Ordusunun gücünü göstərmiş oldu. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi və Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar və Madaqiz kəndləri istiqamətində yollar düşməndən azad olundu. Bu yaxınlarda isə, 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru oldu. Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirildi, Dərələyəz mahalının Arpa kəndində (ermənilər adını dəyişdirərək "Areni" qoyublar) və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarət altına götürüldü. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi birləşmələrinin döyüşçüləri çox böyük qəhrəmanlıqla üç gün davam edən əməliyyatlar nəticəsində, 11 min hektar ərazini ermənilərdən azad etdi.

Təsadüfi deyil ki, 2017-ci ildə "Global Firepower" təşkilatının yekunlarına əsasən, Azərbaycan Silahlı Qüvvələri "Dünyanın ən güclü ordusu" reytinqində 58-ci yerdə qərarlaşıb. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin ordu quruculuğu prosesi uğurla davam etdirilir və ordumuz daha da inkişaf edir və təkmilləşir. Belə bir gücə malik ordu işğal olunmuş ərazilərimizi düşməndən azad etmək və ölkəmizin ərazi bütövlüyünü qorumaq gücündədir.

### Düşmənə həmişə yerini göstərən Azərbaycan Ordusu

2016-cı ilin tarixi aprel döyüşü. Həmişə olduğu kimi, yenə də Azərbaycan Ordusu düşmənə öz yerini göstərdi. Belə ki, Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına Azərbaycan Ordusu əks-hücumla cavab verməyə məcbur oldu. Prezident İlham Əliyev Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paraddakı çıxışında da bildirdi ki, Azərbaycan Ordusu döyüş meydanında öz gücünü və məharətini göstərib. "Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində, işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır" deyə dövlətimizin başçısı vurğulayıb.

Ancaq qələbələrə imza atan Azərbaycan Ordusu Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə daha bir töhfə Naxçıvandan oldu. Günnüt əməliyyatı... Əlahiddə Ümumqoşun Ordusunun bölmələri uğurlu əks-həmlə əməliyyatı ilə düşməni Şərur rayonunun işğal altındakı Günnüt kəndindən çəkilməyə məcbur etdi. "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı, Xunut dağı və Mehridağı azad olundu, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Artıq bu yüksəkliklərdən İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yolu və bir neçə ətraf yaşayış məntəqəsinə nəzarət edə bilirik...

Bütün bunlar göstərdi ki, belə xəbərləri yenə eşidəcəyik. Müharibə hələ bitməyib. Nə qədər ki, əzəli-əbədi torpaqlarımız düşmən işğalı altındadır, Azərbaycan əsgəri silahını yerə qoymayacaq!

Ermənistan reallıqdan, bu gerçəklikdən ciddi şəkildə təlaş keçirməkdədir və işğalçı ölkənin hərbi ekspertləri, politoloqları, müxtəlif araşdırmaçıları həyəcan təbillərini döyməyə başlayıblar. Çünki Azərbaycanın dövlət başçısının - Prezident İlham Əliyev Cənablarının "Ermənistan Azərbaycanla rəqabət apara bilmir və heç vaxt buna nail ola bilməyəcək" kəlamı Azərbaycanın heç vaxt işğalla barışmayacağı mesajı idi.

**RƏFİQƏ KAMALQIZI**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 sentyabr 2019-cu il

# “Nargis” komandasının “Make the Earth Smile” resaykling sərgisinin rəsmi açılışı olub












***Sentyabrın 9-da Dənizkənarı Milli Parkda “Nargis” komandasının “Make the Earth Smile” resaykling sərgisinin rəsmi açılışı olub.***

AZƏRTAC xəbər verir ki, “Nargis” Nəşriyyat Evi ətraf mühitin qorunması probleminə həsr edilmiş sərgi təşkil edib. Layihə çərçivəsində səkkiz heykəltəraş müxtəlif istehsalat tullantılarından qurulmuş 13 instalyasiya təqdim olunub. Sərgi “Nargis” jurnalının “Ekologiya” mövzusuna həsr olunmuş 63-cü nömrəsi ilə eyni vaxta təsadüf edib. Jurnal, üz qabığında - IDEA-nın təsisçisi Leyla Əliyevanın fotosu ilə nəşr edilib.

“Nargis” komandası - ətraf mühitə laqeyd olmayan insanlardır. “Nargis” ekoloji brendləri dəstəkləyir, təbii sərvətlərə qənaət edir, eyni zamanda, geniş oxucu kütləsi qazanmış bir nəşr olaraq, hər birimizin Ana-Yer kürəsinin qorunmasını təşviq və təbliğ etməkdə öz məsuliyyətini hiss edir.

“Make the Earth Smile” adlı ekoloji layihə - insanın həyat fəaliyyətinin 13 ən vacib, Yer kürəsinə xüsusilə zərər verən böhranlı sahəsini özündə əks etdirən 13 instalyasiyadan ibarətdir. Layihənin məqsədi - gənc nəsli müsbət nəticələrlə yekunlanan yeni həyat tərzinə alışdırmaqdır. Sərgidə ətraf mühitə kömək etmək üçün hər birimizə tövsiyə olunan 13 faydalı vərdiş təsvir edilmiş “Nargis” kitabçaları paylanıb. 13 rəqəmi təsadüfən seçilməyib - 13 dekabrda “Nargis” jurnalı öz ad gününü qeyd edir.

Rəşad Ələkbərov, Orxan Hüseynov, Kənan Əliyev, Sabit Zamanov, Teymur Qəribov, Fərid Rəsulov, Nurəli Şahbazov, Nazim Şükürov öz instalyasiyalarını onlara tərəfdaşlıq edən Aquavita, Ay Qonşu, “AzərEnerji”, “Azersun”, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC, “Baku Steel Company”, “Caspian Drilling Company Ltd”, “Coca-Cola”, Dr. Cahid Şahbazov, “Gilan Holding”, “Nargis” Publishing House və “Veysəloğlu” Şirkətlər Qrupu ilə birgə yaradıblar.

Açılışa Leyla Əliyeva, “Nargis”in tərəfdaşları və dostları, xarici ölkələrin Azərbaycandakı səfirliklərindən nümayəndələr, nazirliklərdən nümayəndələr, sənətkarlar və qalereya sahibləri də daxil olmaqla 150-yə yaxın insan qatılıb. Sərgini ziyarət edən Təhsil naziri Ceyhun Bayramov təhsil sistemi çərçivəsində “Nargis” Nəşriyyat Evi ilə gələcək əməkdaşlıq üçün ekoloji layihə təklif edib. Daha sonra başda Ülviyyə Mahmudova olmaqla “Nargis” Nəşriyyat Evinin komandası bulvarda zeytun ağacı əkib.

Bu, “Nargis” komandasının təşkil etdiyi ilk sərgi deyil: bu ilin aprel ayında İstanbulda, “Nargis” Nəşriyyat Evi, jurnalın mövcud olduğu altı il ərzində çəkdiyi eksklüziv fotoşəkillərdən ibarət sərgi təqdim etmişdi, iyul ayında isə Bakıdakı Müasir İncəsənət Muzeyində “Women, Children and Well-Being” adlı xeyriyyə sərgisi keçirmiş və foto satışından əldə olunan pulun bir hissəsini “Nargis” xeyriyyə fonduna yönəltmişdir. “Make the Earth Smile” sərgisi oktyabrın 5-dək davam edəcək. Giriş sərbəstdir.

# Bakıda "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda dəyirmi masa keçirilib

***Sentyabrın 11-də Bakıda "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.***







Tədbiri giriş sözü ilə açan Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı bildirib ki, Azərbaycan dövləti uğurla inkişaf edir, onun beynəlxalq müstəvidə mövqeyi güclənir. Bu isə xaricdəki müəyyən dairələri narahat edir. Millət vəkilinin sözlərinə görə, xaricdəki anti-Azərbaycan qüvvələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. "Azərbaycandan kənarda yaşayan bəzi azərbaycanlılar sosial şəbəkələrdən, internet televizyalarından intensiv olaraq canlı yayımda xalqı çaşdırmağa çalışır, dövlətimizə, dövlət başçısına qarşı şər-böhtan atırlar. Onlar ölkəni xaosa çevirmək, əldə etdiyimiz bütün uğurları məhv etmək istəyirlər. Bu ssenarinin təməl daşını qoyan məhz Avropada məskunlaşan və onlara dəstək verən dağıdıcı antimilli qüvvələrdir. Ölkəni anarxiyaya sürükləmək istəyən həmin insanlar Azərbaycana düşmən olan qüvvələr tərəfindən idarə olunurlar, maliyyələşdirilirlər. Eyni zamanda, məqsəd Azərbaycan dövləti və iqtidarı ilə xalq arasında etimadsızlıq toxumu səpmək, xalqla iqtidar arasındakı birliyi sarsıtmaqdır. Bütün bunlar Azərbaycanın dövlətçiliyinə, milli maraqlarına qarşı yönəlmiş olan xətdir. Biz dövlət maraqları naminə bu çirkin fəaliyyəti, ölkəmizdəki siyasi proseslərə xarici müdaxilə cəhdlərini qətiyyətlə pisləməliyik".

Dəyirmi masada çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, istənilən siyasi partiya ölkənin maraqlarını üstün tutmalıdır. O qedy edib ki, xaricdə mühacir statusu alan bəzi şəxslər Azərbaycanda siyasi proseslərdə müdaxilə etməyə cəhd göstərirlər.

Əli Əhmədov deyib ki, həmin şəxslər xaricdən sığınacaq almaqla Azərbaycan vətəndaşlığından imtina etməyə bərabər addım atıblar: "Digər tərəfdən, xaricdə sığınacaq aldığına görə çox məhdud dövlət yardımı ilə yaşayan insanların geniş siyasi fəaliyyət göstərmək, təbliğat maşını yaratmaq, onu idarə etmək kimi imkanları yoxdur. Deməli, bunlar istəsələr də, istəməsələr də bu fəaliyyəti göstərmək üçün, hər hansı bir kənar maliyyə dəstəyinə ehtiyac duyurlar və bu dəstəyi almaq üçün ayrı-ayrı maraqlı qüvvələrin təsiri altına düşməyə məhkumdurlar. Həmçinin, onlar bu məsələdə maraqlı olan xüsusi xidmət orqanları üçün tamamilə açıq olurlar, ardıcıl olaraq xarici xüsusi xidmət orqanları tərəfindən asanlıqla ələ alına bilən, yönəldilə bilən bir qrupa çevrilirlər. Bu mənada o insanların Azərbaycan siyasətinə təsir etmək cəhdləri həm təhlükəli, həm də yolverilməzdir".

O qeyd edib ki, həmin şəxslərin bəziləri "Youtube"da guya izləyicilərinin hesabına gəlir əldə edirlər: "Bu, əsassızdır, araşdıra bilərsiniz. Hakimiyyət iddiasında olan partiyalar xalqın marağından çıxış etməlidir, hansı xarici qüvvənin yox. Mühacirlərin əsas işi Azərbaycan dövlətini, Prezidentini nüfuzdan salmaqdır. Çünki Azərbaycan güclənib, qüdrətlənib. Bəzi xarici qüvvələr Ermənistanı "demokratik", Azərbaycanı isə "anti-demokratik" göstərməyə cəhd edirlər. Bütün bu cəhdlər əbəsdir. Sağlam düşüncəli qüvvələrin milli maraqlar naminə birləşməsi çox önəmlidir. Xarici qüvvələr seçkilər vasitəsilə də ölkə daxilinə müdaxilə etməyə cəhd edə bilərlər. Bu təcrübə var".

YAP Sədrinin müavini söyləyib ki, ayrı-ayrı dövrlərdə xarici emissarların Azərbaycanda keçirilən mitinqlər, küçə yürüşlərini nə dərəcədə yaxından izlədikləri və yaxud hansısa formada yönəltdiyi ilə bağlı kifayət qədər misallar gətirmək mümkündür: "Hakimiyyət iddiasında olan bütün siyasi partiyalar ilk növbədə milli maraqlardan çıxış edərək siyasi proseslərin iştirakçısı olmalıdır və hər hansı kənar qüvvənin siyasi proseslərə müdaxilə etməsinə imkan verməməlidirlər. Biz bu gün xaricdə mühacir qismində sığınacaq tapmış bəzi insanların indiki texnologiyanın imkanlarından istifadə edərək Azərbaycana qarşı apardığı çirkli təbliğat kampaniyasına qarşı qəti sözümüzü deməyi bacarmalıyıq. Bu mənada bugünkü tədbiri xüsusi qiymətləndirmək istəyirəm".

Tədbirdə daha sonra BAXCP sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa, Vəhdət Partiyasının sədri, Milli Məclisin depuatı Tahir Kərimli, Milli QHT Forumunun prezidenti Rauf Zeyni və digərləri çıxış edərək ölkəmizdəki siyasi proseslərə xarici müdaxilələrin yolverilməz olduğunu vurğulayıblar. Qeyd olunub ki, bu məsələdə bütün siyasi partiyalar, vətəndaş cəmiyyəti həmrəylik nümayiş etdirməlidir.

Sonda tədbir iştirakçıları adından bəyanat qəbul olunub.

## "Azərbaycan hökuməti çoxuşaqlı ailələri diqqətdən kənarda saxlamır"

"Azərbaycanda xeyli ailə ünvanlı sosial yardım alır. Bu yardımdan faydalanan ailələrin əksəriyyəti çoxuşaqlıdır. Bu mənada "ölkədə "uşaqpulu" verilmir" məntiqini qəbul etmirəm". SİA-nın verdiyi məlumata görə, bunu Yeni Azərbaycan Partiyasının sədr müavini - İcra katibi, Baş Nazirin müavini Əli Əhmədov deyib. O qeyd edib ki, ünvanlı sosial yardım həm də çoxuşaqlı ailələr üçün nəzərdə tutulub: "Çoxuşaqlı ailələr həm də aztəminatlı ailə hesab olunur". Ə.Əhmədov vurğulayıb ki, bu baxımdan "Azərbaycanda "uşaqpulu" verilmir" fikrini səsləndirmək doğru deyil: "Azərbaycan hökuməti çoxuşaqlı ailələri diqqətdən kənarda saxlamır. Siz bunu "uşaqpulu" formasında ifadə edirsinizsə, o zaman bu, araşdırılmalıdır. Güman edirəm ki, bu məsələ araşdırıla və qərar qəbul oluna bilər. Bir daha qeyd edirəm ki, aztəminatlı ailələrin dövlətdən güzəştalma mexanizmi və forması mövcuddur".



## YAP-ın nümayəndə heyəti ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsində görüş keçirib





Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin 20 illiyi münasibətilə Çin Xalq Respublikasında səfərdə olan YAP nümayəndə heyəti sentyabrın 11-də ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin 6-cı Departamentinin rəis müavini Van Minlə görüşüb. Görüşdə Azərbaycan ilə Çin, eləcə də YAP ilə ÇKP arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib. Nümayəndə heyətinin rəhbəri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin komitə sədri Hadi Rəcəbli müstəqil Azərbaycanın keçdiyi inkişaf yolundan bəhs edib, Heydər Əliyev siyasətinin uğurlu nəticələrini vurğulayıb. Qeyd edib ki, hazırda Azərbaycanın qarşısında dayanan əsas məsələ ölkənin 20 faiz torpaqlarının işğaldan azad edilməsi, Ermənistanın hərbi təcavüzündən zərər çəkən 1 milyondan artıq qaçqın və məcburi köçkünün hüquqlarının bərpasıdır. Komitə sədri, həmçinin, YAP-ın ÇKP ilə əlaqələrin inkisafına böyük əhəmiyyət verdiyini bildirib.

Öz növbəsində, xanım Van Min Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin Çində böyük maraq doğurduğunu, sürətlə inkişaf edən Azərbaycanla əməkdaşlığın ölkəsi üçün mühüm önəm daşıdığını vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Qeyd edək ki, YAP nümayəndə heyətinin Çinə səfəri sentyabrın 17-dək davam edəcək.

# “Amulsar” problemi: Paşinyan üçün siyasi dilemma

***Ermənistan hakimiyyətinin səbatsız xarici siyasət yeritdiyi çoxdan məlumdur. Nikol Paşinyan baş nazir seçiləndən sonra isə vəziyyət daha da ağırlaşıb. Ekspertlər onun siyasi karyerasının özü üçün faciəvi sonluqla bitəcəyi haqqında proqnozlar verirlər. Son zamanlar bunu təsdiq edən hadisələr artıb. Ermənistan cəmiyyəti “Amulsar” qızıl mədəni ətrafında yaranmış siyasi böhranın gərginliyi altındadır. Hazırda bu problemi həll etmək mümkün olmur. Çünki N.Paşinyana həm Moskvadan, həm də Vaşinqtondan təzyiq göstərilir. Ümumiyyətlə, bu cür vəziyyətin yaranması səbəbləri arxasında hansı məqamların dayandığı ilə bağlı müxtəlif fikirlər vardır. Biz məsələnin üzərində geosiyasi kontekstdə geniş dayanmağa ehtiyac görürük.***




### “Qısır dağ”dakı mədən: baş nazirin başağrısı

Ermənistanın baş nazirinin siyasi karyerasını dar ağacında bitirmə ehtimalının olduğu haqqında bir müddətdir ki, KİV-də proqnozlar verilir. Məsələ konkret olaraq onun asılıb-asılmamasında deyil. Obrazlı şəkildə N.Paşinyanın idarəçilik üsulunun və geosiyasi kursunun perspektivinin olmadığı ifadə edilir. Təcrübə göstərir ki, doğrudan da, Ermənistan hakimiyyəti olduqca ziddiyyətli və gərgin bir vəziyyətlə üzləşib.

Erməni mətbuatı artıq bir aydır ki, “Amulsar” mədəni haqqında informasiyalar yayır. “Amulsar” sözü “Qısır dağ” kimi tərcümə olunur. Ancaq 2006-cı ildə orada 31 milyon ton filiz, 40 ton isə qızıl olduğunu aşkarladılar. Kəşfiyyat işlərini 10 il müddətində Britaniya-Amerika şirkəti olan “Lydian Armenia” aparıb. 2016-cı ildən isə onun istismarına start verilib. Statistik məlumata görə, şirkət bu işə 400 milyon ABŞ dolları sərmayə qoyub. Ermənistan hakimiyyəti bu məbləği ölkə tarixinin ən böyük sərmayə proqramı adlandırır. Əlbəttə, Ermənistan üçün 400 milyon dollar böyük rəqəm sayılmalıdır, çünki bu ölkə üçün 100 milyon da çox sayılır. Lakin Azərbaycanın həyata keçirdiyi layihələr fonunda 400 milyon olduqca xırda rəqəmdir.

Hər bir halda ermənilərin bu “nəhəng” layihə ilə fəxr etməsi çox çəkmədi. Ekspertlər vurğulayırlar ki, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev İrəvana bu il avqustun 12-13-də səfər edəndən sonra qızıl mədənini istismar edənlərin qara günləri başlayıb. N.Paşinyan N.Patruşev gedəndən dərhal sonra “suveren və müstəqil” qərar qəbul edərək, “Amulsar” işi ilə bağlı olan yüksək vəzifəli erməni işdən çıxarıb, eyni zamanda, qızıl mədəninin istismarına qadağa qoyub.

Avqustun 15-də isə Ermənistan İstintaq Komitəsinin rəhbəri Ayk Qriqoryan “Earth Link & Advanced Resources Development” (ELARD) beynəlxalq ekspert qrupunun geniş bir rəyini təqdim edib. Orada göstərilib ki, “Amulsar” ekoloji təhlükə törətmir. Yaxşı qərarlarla isə riskləri idarə etmək olar. Bundan sonra avqustun 19-da baş nazir N.Paşinyan çıxış edərək “Amulsar”ı istismar etməyin mümkün olduğunu yenə də “suveren və müstəqil” qərarla elan edib. Əsl həngamə də bundan sonra başlayıb.

Məsələ ondan ibarətdir ki, həmin çıxışında N.Paşinyan işarə verib ki, “Amulsar”ın istismarının qadağan olunması qərarı bir sıra başqa şirkətlər tərəfindən siyasiləşdirilir. Onlar pul verərək insanları yolları kəsməyə təhrik edir və qızıl-filiz yataqlarını özləri ələ keçirmək istəyirlər. Burada maraqlısı odur ki, N.Paşinyan üçün “bumeranq effekti” başlayıb. Onun bir vaxtlar özünün hakimiyyətə gəlmək üçün istifadə etdiyi üsuldan indi özünə qarşı istifadə edirlər.

Sonra aydın olacaq ki, N.Paşinyana badalaq gələnlər arasında onun parlamentdəki müttəfiqi Qaqik Sarukyan da var. Bu adamın həmin mədənə iddialı olduğu üzə çıxıb. Q.Sarukyan sentyabrın 9-da çıxış edərək belə deyib ki, əgər xalq razı deyilsə, iddiasından əl çəkə bilər. İndi mədəni istismar edən şirkət isə 400 milyondan danışır, lakin real elə bir mənzərə yoxdur. Yəni Q.Sarukyan da hesab edir ki, “Amulsar” ilə bağlı fərqli qərar olmalıdır.

Erməni ekspertlər bunları Q.Sarukyanın ikiüzlülüyü kimi qiymətləndiriblər. Onun bir vaxtlar Robert Koçaryana, Serj Sarkisyana və başqa siyasətçilərə eyni zamanda xidmət etməsini xatırladıblar. Yekun olaraq belə qənaətə gəlinir ki, “Amulsar” məsələsi də siyasi aspektlidir. Əsas problem bu prosesin arxasında kimlərin dayanmasındadır. Baş nazir N.Paşinyan avqustun 23-də Cermuxa gedərək etirazçılarla söhbət edib. Fəallar “”Amulsar” qoruq kimi qalsın” şüarı ilə çıxış edirlər. Ancaq insanlar N.Paşinyanın dediklərini qəbul etməyiblər. Avqustun 28-də baş nazir ELARD nümayəndələri ilə görüş keçirib və ondan sonra yenidən müəmmalı danışıb. Aydın görünürdü ki, baş nazir tərəddüd edir. Bu hadisədən “Lydian Armenia” narazılığını bildirib və aranı qatan şirkətlər haqqında Ermənistan hakimiyyətindən informasiya istəyib.

### Siyasi tərəddüdlər: bumeranq Nikola qayıdır

Ondan bir gün sonra Rusiyanın Ermənistandakı səfiri Cermuxdakı istirahətindən foto paylaşıb. Bundan ekspertlər baş verənlərin arxasında Moskvanın dayandığı nəticəsini çıxarıblar. Görünür, sentyabrın 2-də ABŞ-ın ticarət palatasının məsələ ilə bağlı mövqe bildirməsi də təsadüfi deyil. Amerikalılar N.Paşinyanın bütün bu işlərin arxasında kimlərin dayandığını aydınlaşdırıb tədbir görəcəyinə ümid edirlər.

Bütün bunlardan sonra N.Paşinyan daha geniş tərkibdə iclas keçirərək, müzakirələr aparıb, onların nəticəsini sentyabrın 9-da elan edib. Yenidən mədənin istismar edilməsindən bəhs edib. Buna siyasilər də reaksiya veriblər. “Sasna Srer” qruplaşmasının rəhbəri Jirayr Səfilyan N.Paşinyanla görüşərək, “Amulsar”ın istismarı qərarından dönməyin onun üçün çox pis qurtara biləcəyini, eyni zamanda, Ermənistanın beynəlxalq etibarının sıfıra enəcəyini bildirib.

Konkret olaraq, J.Səfilyan deyib ki, fürsət gözləyən qüvvələr küçələrdə etiraz aksiyaları təşkil edəcəklər və baş naziri öz üsulu ilə hakimiyyətdən yıxacaqlar. Bununla həm Ermənistanın demokratikliyi, həm də “məxməri inqilab” nağılları puç olacaq. Üstəlik, N.Paşinyan məhkəmə qarşısında cavab verəcək. Onu siyasi mənada dar ağacına çəkəcəklər.

Deməli, əslində, “Amulsar” hadisələri N.Paşinyanı öz metodu ilə vurmaq üçündür. Bir vaxtlar küçədə qətiyyətli görünən N.Paşinyan indi nə edəcəyini qətiləşdirə bilmir. Bir ay ərzində üç dəfə qərarını dəyişib. Moskva təzyiq edəndə, onun sözünü deyir, Vaşinqton etiraz edəndə isə dərhal mövqeyini dəyişir. Bu, tipik erməni tərəddüdüdür və onu ifadə edir ki, Ermənistan hələ də dövlət kimi formalaşa bilməyib.

Həmin kontekstdə R.Koçaryan tərəfdarlarının da etirazlara başlaması maraq doğurur. Ekspertlər hesab edirlər ki, bu iki hadisə bir-biri ilə bağlıdır. Eyni zamanda, erməni KİV-in məlumatlarına görə, Kremldən N.Paşinyana R.Koçaryan məsələsini müsbət həll etmək üçün on gün vaxt verilib.

Bu deyilənlər Ermənistanla bağlı maraqlı geosiyasi nəticələr çıxarmağa əsas verir. Məlum olur ki, Ermənistan hakimiyyəti növbəti dəfə dalana dirənib - o, böyük güclərin maraqları arasında sıxılır. Bundan başqa, Rusiyanın “Amulsar” problemini qaldırması yalnız R.Koçaryanla bağlı görünmür. Kreml həmin addımla bütün dünyaya nümayiş etdirir ki, N.Paşinyanın suverenlikdən, iri layihələrdən, böyük sərmayə qoyuluşundan dəm vurmasının real əsası yoxdur. Bu məsələlərdə əsl söz sahibi Moskvadır. Buna görədir ki, artıq 400 milyon dollar sərmayə qoymuş Qərb şirkəti belə Ermənistandan cibiboş yola salına bilər.

Bunlar N.Paşinyanın siyasi olaraq tam iflası deməkdir. Moskva bir zərbə ilə onu yerlə-yeksən edir. Təbii ki, Ermənistanda etiraz aksiyaları bundan sonra yeni mərhələdə davam edəcək. N.Paşinyan indi hakimiyyət dəhlizindən küçəyə baxır. Yəqin ki, özünü orada görmək istərdi. Çünki hakimiyyətdə olmaqdan küçədə ağzına gələni danışmaq daha asandır. Ancaq artıq gecdir. Ona sübut edirlər ki, demokrat və ya liberal olmaq asan deyil. Bunun üçün güclü cəmiyyət, siyasi ənənə və əsl demokratik ruh lazımdır. Bunların heç biri isə ermənilərin tarixində olmayıb.

Belə görünür ki, N.Paşinyanın siyasi rəqibləri daha da fəallaşacaqlar. Onlar hiss edirlər ki, N.Paşinyan rasionalizmdə və real siyasətdə çox zəifdir. Onun məğlubiyyəti qaçılmazdır. Ermənistanın daxili ziddiyyətlər içində çırpınması onun regiondakı geosiyasi mövqeyinə də təsir edəcək. Bu baxımdan hazırkı erməni iqtidarının, ümumiyyətlə, siyasi perspektivinin olmadığı nəticəsini çıxarmaq çətin deyildir.

Ancaq əsas məsələ bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsindədir. Burada ümumi vəziyyət sabitlikdən çıxa bilər. Kənardan olan təsirlərin neytrallaşdırılması mürəkkəbləşir, çünki mübarizə aparanlar çox güclüdürlər. Qalır yerli dövlətlərin konstruktiv siyasət yeritməsi. Ermənistan isə hələlik bunun iqtidarında deyil.

**Newtimes.az**

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib



Sentyabrın 11-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov payız sessiyasının başlaması münasibətilə deputatları təbrik edib, onlara işlərində uğurlar diləyib.

Komitə sədri bildirib ki, iclasın gündəliyindəki "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunur.

Məlumat verilib ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2-ci maddəsinə edilən dəyişiklikdə təklif olunur ki, "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin. Eyni məzmunlu düzəlişlər bu qanunun 7-ci maddəsində və "Əmək pensiyaları haqqında" qanunun 21.2.3-cü maddəsində də nəzərdə tutulub. Həmçinin "hərbi qulluqçular" anlayışının məzmunu yenilənərək "Azərbaycan Respublikası Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət edən hərbi rütbəli şəxslər" kimi verilir.

Diqqətə çatdırılıb ki, layihə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2018-ci il 12 oktyabr tarixli qanunun icrasını təmin etmək məqsədilə hazırlanıb. Həmin qanunda hərbi qulluqçuların yalnız Azərbaycan Respublikasının Silahlı Qüvvələrində deyil, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında da (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət keçməsi müəyyən olunub. Təklif edilən dəyişikliklər belə qurumların hərbi qulluqçularının dövlət icbari şəxsi sığortası və pensiya təminatının əvvəlki qaydada saxlanılmasına xidmət edir.

Sonra Ziyafət Əsgərov bildirib ki, cari ilin yaz və növbədənkənar sessiyalarında komitənin 10 iclası keçirilib, 17 qanun layihəsi plenar iclasa tövsiyə olunub və qəbul edilib. Payız sessiyasında "Daxili qoşunlar haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və digər qanun layihələrinə baxılması nəzərdə tutulub.

İclasda çıxış edən komitə üzvləri Elman Məmmədov, Aqil Abbas, Hikmət Məmmədov, Fərəc Quliyev qanunlara edilən dəyişiklikləri məqbul hesab ediblər. Deputatlar dövlət tərəfindən hərbi sahəyə, hərbi qulluqçulara göstərilən diqqət və qayğını təqdir ediblər. Ordumuzun döyüş ruhunun yüksək olduğunu söyləyiblər.

Müzakirələrdən sonra "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Bakıda Dünya Mətbuat Şuraları Assosiasiyasının toplantısı keçiriləcək



Bakıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının növbəti illik toplantısı keçiriləcək. Tədbir 12-13 sentyabr tarixlərində "Park İNN" hotelində təşkil olunacaq. SİA xəbər verir ki, bu barədə Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov məlumat verib. Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə gerçəkləşəcək bu mötəbər tədbirdə Asiya, Avropa və Afrikanın 20-yə yaxın ölkəsindən, o cümlədən Türkiyə, Hindistan, Banqladeş, Nepal, Kenya, Zimbabve, İraq, Kosovo, Makedoniya, Şri-Lanka, Tanzaniya, Uqandadan nümayəndələr, həmçinin ölkəmizin ictimai rəyə təsir göstərən kütləvi informasiya vasitələrinin təmsilçiləri qatılacaqlar.

Toplantıda Azərbaycan rəsmiləri, BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların, o cümlədən yerli media qurumlarının rəhbərləri və ekspertlər də iştirak edəcəklər. Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv təşkilatların nümayəndələri öz ölkələrində söz azadlığı və medianın durumu, o cümlədən mövcud problemlərə dair məruzələrlə çıxış edəcəklər. Mövcud sahədəki tendensiyalarla bağlı fikir mübadiləsinin aparılacağı toplantıda həmçinin. ekstremal vəziyyətlərdə və müharibə şəraitində jurnalistlərin davranışı ilə bağlı müzakirələrin getməsi də nəzərdə tutulur.

# Vüqar Rəhimzadə: "Paşinyanın hakimiyyət hərisliyi və acgözlüyü Ermənistanı növbəti dəfə siyasi kollapsla qarşılaşdırıb"



Ermənistan çox ciddi iqtisadi və siyasi böhranla üz-üzədir. Nikol Paşinyanın hakimiyyət hərisliyi və acgözlüyü Ermənistanı növbəti dəfə siyasi kollapsla qarşılaşdırıb. Buna səbəb isə "Amulsar" qızıl mədəninin "Lydian Armenia" şirkəti tərəfindən işlədilməsi ilə bağlı davam edən proseslərin Ermənistan hökuməti ilə xalq arasında fikir ayrılığının yaranmasıdır.

Bu sözləri Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında söyləyib. Vüqar Rəhimzadə bildirib ki, "Amulsar" qızıl mədəni ətrafında yaranmış siyasi xaos və Ermənistan hökumətinin düşdüyü isterik durum Nikol Paşinyanın ictimai nüfuzuna çox ciddi mənfi təsir göstərməkdədir: "Ümumiyyətlə, bu layihənin icrası Ermənistanda Rusiya biznesinin tam sıxışdırılaraq Qərb kapitalına üstünlük verilməsi deməkdir. Bu mənada Nikol Paşinyan da layihəyə neqativ yanaşan xalqın qarşısında aciz qalıb. Çünki layihə baş tutmayacağı təqdirdə baş nazir Qərbin dəstək və etimadını itirəcək, nəticə etibarilə Ermənistanın investisiya mühiti pisləşəcək və etibarsız tərəfdaş imici formalaşacaq".

"Müşahidələrimiz onu göstərir ki, Paşinyan hakimiyyətə gəldikdən sonra Rusiya kapitalını sıxışdırmaq üçün addımlar atılıb",- deyən Vüqar Rəhimzadə əlavə edib ki, Paşinyan anti-Rusiya fəaliyyətini əsaslandırmaq üçün "Amulsar" ətrafında manipulyasiya edir. Guya "Amulsar"ın fəaliyyətə başlaması işsizliyin azalmasına şərait yaradacaq, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına xidmət edəcək. Lakin bunun ağ yalan olduğunu həm cəmiyyət, həm müxalifət, həm də qeyri-hökumət təşkilatlarının nümayəndələri vurğulayırlar. Həmçinin müxalif qruplar qızıl mədəninin fəaliyyətə başlamasının ətraf mühitə və su təchizatına ciddi dərəcədə zərər vuracağı qənaətindədir".

Vüqar Rəhimzadə vurğulayıb ki, "Lydian International" Qərb kapitallı bir şirkətdir və Nikol Paşinyan da bu şirkətə Ermənistanda işləməyə icazə verməklə hakimiyyətini gücləndirmək, Rusiyadan asılılığı azaltmaq üçün Böyük Britaniyaya, ABŞ-a yarınmaq niyyətindədir: "Lakin Paşinyanın hesablaya bilmədiyi bir məqam var idi, o da erməni xalqının rəyidir. Paşinyan öz aləmində siyasi manevr etməyə çalışsa da, odla-su arasında qalıb. Bir tərəfdən, Ermənistan ictimaiyyəti, digər tərəfdən, Rusiya faktoru Paşinyanı çıxılmaz duruma salıb. Hətta, bu ilin əvvəlində Böyük Britaniya qeydiyyatlı "Lydian International" şirkətinin hökuməti beynəlxalq məhkəmədə 2 milyard dollarlıq iddia qaldıracağı ilə hədələməsi, sonda hökumətin şirkətin lehinə qərar verməsi vəziyyəti daha da gərginləşdirib. Bəlkə də elə bu səbəbdəndir ki, Paşinyan vəziyyətdən çıxış yolunu Vaşinqtonda axtarmaqdadır. Ona görə də sentyabr ayında Paşinyanın Vaşinqtona gözlənilən səfərində "Amulsar" qızıl mədəni ilə bağlı məsələnin ABŞ-Ermənistan münasibətləri kontekstində gündəm mövzusu olacağı haqda mətbuatda məlumatlar yayılmaqdadır. ABŞ-ın Ermənistandakı keçmiş səfiri Riçard Milin mediaya açıqlamasında Paşinyan hökumətinin "Lydian" şirkətinin lisenziyasını ləğv edəcəyi halda bunun ABŞ-Ermənistan münasibətlərinə xələl gətirəcəyini və xarici investorları qorxudacağını bildirməsi məsələnin nə dərəcədə ciddi olmasının göstəricisi sayıla bilər".

"İki sahil" qəzetinin baş redaktoru diqqətə çatdırıb ki, "Amulsar" qızıl mədəni ətrafında baş verənlər bu gün Nikol Paşinyan iqtidarı üçün çox ciddi probleme çevrilib: "Çünki mədənlə bağlı hökumətin qeyri-adekvat reaksiyası müxalifət partiyaları tərəfindən tənqid edilməkdədir. Hətta, "Daşnaksütyun" partiyası xalqın istəyinin təmin edilməsi məqsədi ilə referendumun keçirilməsi barədə çağırış edib. Bu kontekstdə layihənin parlamentdə səsə qoyulması, ölkənin ən böyük partiyası olan hakim "Mənim Addımım" Alyansı daxilində parçalanmaya səbəb olması gözləniləndir. Eyni zamanda, müxalif "Çiçəklənən Ermənistan" partiyası da ictimai konsensusa əsaslanaraq qərar verilməsinin vacib olduğunu vurğulayıb və aksiyaçılara qoşulan partiyanın lideri Naira Zöhrabyan əhalinin etirazı olacağı təqdirdə "Amulsar" qızıl mədənində aparılacaq fəaliyyətə qarşı çıxacaqlarını söyləyib. Parlamentin digər qrupu olan "İşıqlı Ermənistan" partiyası isə digərlərindən fərqli olaraq radikal davranmayıb və əhalinin narahatlığını bölüşüb. Radikal "Sasna Tser" partiyasının nümayəndəsi Qaregin Çüqaszyan isə bir neçə gün öncə Nikol Paşinyanla görüşündə "Amulsar" layihəsi ilə bağlı atılacaq hər hansı bir səhv addımın onun siyasi karyerasına son qoyacağını açıq şəkildə bildirib. Bütün bu siyasi diskussiyalar və addımlar onu göstərir ki, Ermənistan növbəti, əgər belə demək mümkündürsə, daha dərin siyasi böhran ərəfəsindədir".

Vüqar Rəhimzadə söyləyib ki, onsuz da Rusiya ilə siyasi münasibətləri gərgin olan Ermənistanın durumu Paşinyanın verəcəyi qərardan asılı olacaq. İstənilən halda Paşinyan Ermənistanı ya siyasi, ya da sosial-iqtisadi böhrana salacaq.

# Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarında dəyişiklik edilib



Nazirlər Kabineti 1994-cü il 15 yanvar tarixli Qərarla təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nda dəyişiklik edib. SİA-nın məlumatına görə, bu barədə qərarı Baş nazir Novruz Məmmədov imzalayıb. Qərara əsasən, Xüsusi Dövlət Mühafizə Xidmətinin döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilmiş şəxslər şəhid hesab ediləcək.

# MÜXALİFƏTİN QIRĞINI, YAXUD ƏN BÖYÜK QIRĞI KİMDİR?

***Oxucularımızı daim demokratiyadan, haqq və ədalət uğrunda sivil siyasi mübarizə aparmasından pafoslu şəkildə danışan, özünü tərifləyən radikal müxalifət düşərgəsinin yarımçıq siyasətçilərinin, onların trollarının qaldırdıqları toz-duman və yaranmış son vəziyyət barədə məlumatlandırmaq istəyirəm. AXCP-dən tutmuş Müsavata, "REAL"-a, hətta "Osmanqızı" və "Azərbaycan saatı" kanallarına kimi, o qədər yalan danışır və qeybət edirlər ki, ictimai rəyi zəhərlənmədən qorumaq üçün onların ifşası mütləqləşir. Bu mənada, müxalifət düşərgəsində qarşılıqlı saldırmalar o qədər geniş və çoxşaxəlidir ki, məsələ sistemli bir yanaşma tələb edir. Ona görə də, çalışacam ki, bütün detalları diqqətinizə çatdırım.***

İlk olaraq, dağıdıcı müxalifət düşərgəsində söz sahibi olmaq üçün savaşan, ənənəvi rəqiblər olan AXCP ilə Müsavatın qarşıdurmasından başlayaq. Zaman-zaman Müsavat partiyası ilə AXCP arasında savaşların baş verməsinin, qarşılıqlı ittihamların səsləndirilməsinin şahidi olmuşuq. Bu savaşlar isə, bir qayda olaraq, hər hansı siyasi-ictimai proseslər ərəfəsində, qrant təşkilatları tərəfindən maliyyələşmə elanı verilərkən, start götürür. Bu dəfə də Müsavatla AXCP arasında savaş


Zakir Ismayil Sevda Lacinli və başqa 6 nəfərlə birlikdədir.
2 saat

Yazmışam ki, "Müsavat hakimiyyətə gələcək, bu zaman məsələsidir".
Bir cəbhəçi qardaşımız şərh yazaraq bildirir ki, son bir neçə həftədə 6 cəbhəçi sutkalıq həbs edilib. Kimin hakimiyyətə gələcəyini də xalq müəyyən edəcək.
Əvvəla partiyanın gücü yalnız həbsdə olan üzvlərin sayı ilə müəyyən edilməz.
Yaxşı lider yalnız özünü yox, rəhbərlik etdiyi təşkilatın üzvlərini də qorumağı bacarmalıdır. Ona qalsa Müsavat başqanı illərlə həbsdə olub.
İkincisi, kimin hakimiyyətdə olacağını əlbəttə xalq müəyyən edəcək. Mən də onu deyirəm.
1918-ci ildən xalqın müəyyən etmək imkanı olanda həmişə Müsavatı, müsavatçıları hakimiyyətə gətirib.
Yenə elə olacaq.

başlayıb, lakin səbəb fərqlidir...

Bir müddət öncə, Müsavat partiyası Səbail rayon təşkilatının sədri Zakir İsmayıl "facebook" hesabında cəbhəçiləri nəzərdə tutaraq yazıb ki, partiyanın gücü yalnız həbsdə olan üzvlərin sayı ilə müəyyən edilməz. Sitat: "Yaxşı lider yalnız özünü yox, rəhbərlik etdiyi təşkilatın üzvlərini də qorumağı bacarmalıdır".

Məhz bundan sonra AXCP ali məclisinin üzvü Nicat Abdullazadənin, cəbhəçi Seymur Bayramovun, Nağı Cəbrayıllının, Müsavat partiyası Suraxanı rayon təşkilatının sədri Arzulla Buludlunun, müsavatçı Vüsal Həsənovun və başqalarının iştirakı ilə qarşılıqlı ittiham və təhqirlərlə müşahidə olunan polemika müşahidə olunub. Hətta müsavatçı Vüsal Həsənov onları təhqir edən cəbhəçilərə sual edib ki, "Müsavat hakimiyyətə gələcək" deyəndə, hansısa təşkilatın və ya partiyanın başına niyə daş düşür?

Vəziyyət belədir ki, AXCP ilə Müsavat partiyası arasında bu savaş hələ bir müddət sürəcək. Doğrudur, onların xalq arasında hörməti və dəstəyi olmasa da və ən azından, hakimiyyət uğrunda deyil, radikal düşərgədə "ana müxalifət" adı uğrunda savaşı davam etdirə bilərlər...

* * *

Müxalifət düşərgəsində özünü novator qüvvə kimi aparan "REAL" partiyası ilə AXCP arasında da qalmaqal böyüyür. Bütün proseslər isə "REAL" sədri İlqar Məmmədovun seçkini boykot edənləri erməni əlaltısı adlandırmasından sonra başladı. Buna sərt cavab verən Əli Kərimli "REAL"-a və onun rəhbərliyinə qarşı trol hücumlarına start verdi.

İlk hücum isə ABŞ-da yaşayan müxalifyönlü jurnalist İsmayıl Cəlilovun rəhbərlik etdiyi "Düz danışaq" kanalında İlqar Məmmədovun müsahibəsi zamanı baş tutdu.

Ardınca isə, AXCP ali məclisinin üzvü Nicat Abdullazadənin, Ayaz Məhərrəmlinin, AXCP GK sədri Emil Səlimovun və başqalarının iştirakı ilə Natiq Cəfərliyə "Azad söz"ə müsahibəsi zamanı trol hücumu oldu.

İlqar Məmmədovun və Natiq Cəfərlinin sonrakı "öldürücü" zərbələrinə cavab olaraq AXCP total hücumuna keçdi və daha çox "REAL"-ı təhqir etdi, ələ saldı. AXCP tərəfdən "REAL"-a olan hücumlara Fuad Qəhrəmanlı, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, Sevinc Osmanqızı, Qənimət Zahid, İbrahim İbrahimli, İlham Hüseyn və başqaları da qoşuldular.


Nicat Abdullazade Bu nə cılızlıq, bu nə dözümsüzlük. Ümumi birliyə ziyandan başqa bir şey deyil bu status.
Bəyən · Cavabla · 2 s · 4

Zakir Ismayil Burda nə mübahisə var, nə cilizliq nə də birliyə ziyan. Cəbhəçi dostum ifadə azadligindan istifadə edib mən də ona cavab yazmaq hüququmdan istifadə etmişəm. Təşkilat sədrinin ifadə azadligindan istifadə etmək hüququ yoxdur əziz dost?))

Seymur Bayramov Müsavatın hazırki dələduzları hakimiyyətə gəlsə qulaqlarının dibini görər
Bəyən · Cavabla · 13d

Nağı Cəbrayıllı Çox yersiz bir yazıdır. Bu xalqı sizin kimilər pis günə qoyurlar. Ataların gözəl məsəli var: "Arxı adla, sonra BərəkAllah de"
Bəyən · Cavabla · 36d

Arzulla Buludlu Hər gün cəbhəçilət AXCP -Əli Kərimli təbliğ edirlər, əcəb edirlər, heç vaxtda müsavatçılar buna qıcığ vermirlər. Təsadüfən bir müsavatçı təmsil etdiyi Müsavat Partiyasını təbliğ edən kimi hansısa cəbhəçi qıcıqlanmağa başlayır. Yaxşı olardı ki, cəbhəçilərdə belə məsələlərdə müsavatçılar kimi təmkinli olsunlar.
Bəyən · Cavabla · 16d · 1

Budaq Heziyev Musavat ve yaxud Axcp hakimiyyete gelecekler evvel axir ne vaxtsa. Amma PREZIDENT ISA QENBER olacaq.
Bəyən · Cavabla · 3d

Vusal Hasanov Musavat hakimiyete gelecek deyende hansisa teshkilatin ya partiyanin bashina niye dash dushur bilmirem
Bəyən · Cavabla · 1 s · 2

Gültəkin Hacıbəylinin "faşist" adlandırdığı "REAL" rəhbərliyini, Sevinc Osmanqızı "facebook" səhifəsində kinayəli status yazaraq, "köhnə tullantı" kimi qələmə verməklə təhqir etdi.

"REAL" sədri İlqar Məmmədov da status paylaşaraq yazdı ki, jurnalist Sevinc Osmanqızı, faktiki olaraq, AXCP-nin mətbuat katibi funksiyasını yerinə yetirir. Bunu biləndən sonra o, S.Osmanqızı ilə əlaqələrini kəsib. Sitat: "Əməkdaşlığı kəsdim, çünki mənim bir partiya sədrinə deməyə sözüm varsa, birbaşa özünə deyərəm, mətbuat xidmətinə yox".

Əli Kərimlinin, cəbhəçi trolların, Sevinc Osmanqızının və başqalarının İlqar Məmmədovu, Natiq Cəfərlini və "REAL"-çıları hədəfə almalarından sonra bu kampaniyaya Qənimət Zahid də öz "töhfəsini" verdi. "Azərbaycan saatı"nda canlı efirdə olan "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü İbrahim İbrahimli İlqar Məmmədovu və Natiq Cəfərlini uşaq, tərbiyəsiz və gerizəkalı adlandırmaqla təhqir etdi. Əli Kərimlinin "qidalandırdığı" Fuad Qəhrəmanlı isə İlqar Məmmədovu Salyanda tək ağacla şəkil çəkdirməyini əsas gətirməklə, 10 nəfər belə tərəfdarının olmadığını, mandat üçün çalışdığını deyib, onu ələ saldı.

Düşərgə stəkanında fırtınanı görən Bəxtiyar Hacıyev də mübahisələrdən kənarda qalmamaq və "mən də varam" prinsipi ilə döyülən tərəfə hücum edib. İlqar Məmmədovun son statusuna ilişməklə öz aləmində "siyasi hücum" edib. Bununla da, guya gizli də olsa, xidmət göstərdiyi AXCP sədri Əli Kərimliyə yarınmaq niyyətini ortaya qoyub...

AXCP-Müsavat və AXCP-"REAL" qarşıdurmaları fonunda Əli Kərimlinin "Osmanqızı" kanalında mühacirlərə qarşı "səlib yürüşü"nə xeyir-dua verməsindən sonra Sevinc Osmanqızı, Qənimət Zahid, Natiq Ədilov və digərləri Avropada və ABŞ-dakı mühacirlərə qarşı hücumlara başladılar. Bu kampaniyada xüsusi fərqlənən Sevinc Osmanqızı Əli Kərimlini ifşa edən ABŞ-dan İsmayıl Cəlilovu, Hollandiyadan Nahid Cəfərovu, həmçinin, Müsavatın mühacir alverini ifşa edən Laçın


Natig Jafarli
3 saat
Milli Şura şəxsimə və REAL-a qarşı qarayaxma, çamuratma kampaniyasını ərşə qaldırıb. Fikri olub beyni olmayan bir qrup adam (sayları 100-ü keçmir, sadəcə hər birinin də 4-5 saxta profili var) küy yaradaraq fikir formalaşdırmağa çalışırlar.

Gültəkin Hacıbəyli-Gultakin Hajibayli
2 saat
Dostlar, Natiq Cəfərli bir status yazıb, hakimiyyətə dəstək xarakterli çıxışlarını, [redacted] namizədinin seçkidə müxalifətə qələbə çalacağı haqqı fikirlərini malalamaq üçün yenə məni hədəf alıb, hətta [redacted]-dan çıxdığ

İlqar Məmmədov
3 hrs
[redacted] üzvləri Natiq Cəfərlini birinci dəfə hədəfə alıb qaralamaq cəhdi etmirlər.
Mən həbsdən çıxandan dərhal sonra Sevinc Osmanqızı zəng vurub "xəbərçi"liyi birinci etdi, təxminən belə: "İlqar, sən bilirsən, Natiq Cəfərli Mehriban Əliyevanın vitse-prezidentliyinə "niyə də yox" deyib."
Natiqə heç nə demədim, mövzunu dibinə kimi araşdırdım. Saxta və boş bir ittiham idi. Fikirləşdim ki, Sevinc xanım sadəcə səhv edib. Sonra gördüm ki, Sevinc Osmanqızı bir partiyanın mətbuat katibi imiş. Əməkdaşlığı kəsdim, çünki mənim bir partiya sədrinə deməyə sözüm varsa, birbaşa özünə deyərəm, mətbuat xidmətinə yox.

# MÜXALİFƏTİN QIRĞINI, YAXUD ƏN BÖYÜK QIRĞI KİMDİR?




Məmişovu və başqalarını hədəfə aldı. Sevinc Osmanqızı hər gün canlı yayımda Əli Kərimlinin müdafiəsi üçün bu və digər formada mühacirlərə hücum edir, onları alçaldır və həvəsdən salmağa çalışır.

Elə Natiq Ədilovun paylaşdığı Osmanqızının Nahid Cəfərova hücum videosunda açıq şəkildə ittihamlar səslənir. Həmin videoda S.Osmanqızı bildirir ki, şəxsən özü N.Cəfərovu "Osmanqızı" kanalına çıxarmaq istəmir. O, N.Cəfərovu uzun-uzadı yalan danışmaqda, özü barəsində "demokrat" obrazı yaratmaqda, cılızlaqda, qeyri-səmimilikdə ittiham edib. Deyib ki, N.Cəfərov müxalifətə qarşı müxalifətçilik etdiyinə görə, "Osmanqızı" kanalına dəvət olunmur.

Bir məsələyə də, aydınlıq gətirək ki, Nahid Cəfərov hər zaman cəbhəçilərin trolluq fəaliyyətini və Əli Kərimlinin AXCP daxilində diktatura yaratdığını dilə gətirib. Bu səbəbdən də, cəbhəçilərin, eləcə də Əli Kərimlinin maraqlarını müdafiə edən Osmanqızının və Qənimət Zahidin qara siyahısına düşüb.

Ən səs-küylü qarşıdurmalardan biri də Əli Kərimli-Sevinc Osmanqızı-Qənimət Zahid triosu ilə ABŞ-da yaşayan müxalifyönlü jurnalist, "Düz danışaq" kanalının rəhbəri İsmayıl Cəlilovla baş verdi. Qeyd etdiyimiz kimi, Əli Kərimli İlqar Məmmədova ilk trol hücumunu həmin İsmayıl Cəlilovun "Düz danışaq" kanalında etmişdi.

Məhz bu hücumla bağlı "facebook" səhifəsində 2 status paylaşan İsmayıl Cəlilov Əli Kərimlini və cəbhəçiləri nəzərdə tutaraq yazıb ki, "200 dislike" qoymaq naminə yenə də özünüzü biabır etdiniz. Trollara bayraqdarlıq edənin özü trolldur. Özü də yekəsi. Siyasi mübarizəyə bax da..."

İsmayıl Cəlilov, eyni zamanda, "Osmanqızı" və "Azərbaycan saatı" kanallarının fəaliyyətini də tənqid və ifşa edib. "Facebook" hesabında paylaşdığı statusda yazıb ki, Azərbaycan dilində yayımlanan kanalların böyük əksəriyyəti botlar, proqramlar işlədir. Sitat: "Süni sürətdə izləyiş və abunəçi saylarını şişirdirlər, özlərini olduqlarından daha da populyar göstərməyə cəhd edirlər. Kanaldan- kanala qonan botlar qrupu var. Bu botlar hər biri öz tərəfdarı saydıqları kanalda əvvəlcədən proqramlanmış şüarlar və şərhlər yazır, kanaldan kanala keçir və izləyiş saylarını, şərh saylarını artırırlar. Özü də özlərinə savadlı, təcrübəli jurnalist deyənlər də bu oyunları oynayırlar, onlar ayrıca utanmalıdır".

Əlbəttə ki, İsmayıl Cəlilovun AXCP sədri Əli Kərimlinin trol ordusu saxlamaqda, cəbhəçi trolları qaragüruhçuluqda ittiham etməsi, eyni zamanda, Sevinc Osmanqızının və Qənimət Zahidin "youtube" kanallarında fırıldaq işlərlə, saxtakarlıqla məşğul olduqlarına eyham vurması cavabsız qalmadı. Həm "Osmanqızı", həm də "Azərbaycan saatı" kanallarında trollarla birgə moderatorlar da İsmayıl Cəlilovun ünvanına təhqirlər yağdırdı, hətta onu təhdid etdilər. "Cəbhəçilər şmon edər donuzun kanalını", "Əli bəyə görə İsmayılın təpəsini əzərik", "Səni asarıq, siyahımızdasan" kimi ifadələr işlədiblər.

Qarşılıqlı ittihamlar və təhqirlər ilə müşahidə edilən bu savaşda İsmayıl Cəlilov növbəti dəfə status paylaşmaqla Sevinc Osmanqızını tülkü, hiyləgər adlandırdı və "Osmanqızı" kanalının "Əli Kərimli" TV-yə çevrildiyini bildirdi. Osmanqızının "Meydan" TV-dən qovulmasının səbəblərini də izah edən müxalifyönlü jurnalist qeyd edib ki, Sevinc Osmanqızı kanalında 10.000 izləyiciyə 44 dollar ödəyir.

Məhz bundan sonra Sevinc Osmanqızı kanalında İsmayıl Cəlilovun adını çəkməsə də, onun bostanına əməllicə daş atdı. Sitat: "Hökumətin maliyyə dəstəyi ilə xeyli sayda kanalar açılır. Əsasən də, mühacirətdə olanlar bunu yaradır. Yəqin ki, həmin adamı xaricə atmaqla, o şəxs barədə imic formalaşdırırlar, etimad qazandırırlar. Artıq belə kanallar ABŞ-da, Avropanın bir neçə şəhərində var..."

Təbii olaraq, qarşıdurma bununla yekunlaşmadı və beynəlxalq donor təşkilatlarına müraciət edən İsmayıl Cəlilov canlı yayıma çıxaraq, Sevinc Osmanqızını və Əli Kərimli sərt sözləri və sualları ilə ifşa etdi. İsmayıl Cəlilov bu gün də Osmanqızının və Kərimlinin cavablandırmadığı, lakin ictimaiyyəti narahat edən suallar ünvanladı. O, Osmanqızına ünvanlamaqla, soruşub ki, "Sevinc Osmanqızı, səni kim maliyyələşdirir? ABŞ-da vergi verirsənmi? Şəxsi mənzilini necə almısan? Əli Kərimli sənə maliyyə verirmi və hansı mənbədən verir?" İsmayıl Cəlilov, eyni zamanda, Əli Kərimliyə də müraciət edərək deyib ki, trol ordusu ilə hakimiyyətə gəlmək mümkün deyil. Sorğu edib ki, bu səviyyəsizliklə prezidentlik iddiasında olmaq olarmı? Yaxud sabah Trampla görüşəndə, deyəcəksən ki, gəlib Amerikani şmon edərik? Bu, nə cılızlıqdır?

Görünən odur ki, Sevinc Osmanqızı qrant oyununda pay bölgüsünü ancaq AXCP, Müsavat və Qənimət Zahidlə aparmaq fikrindədir. Eyni zamanda, Azərbaycanda ictimai-siyasi sabitliyin pozulmasında AXCP və Müsavat üçün yeganə media ruporu olmaq niyyətindədir. Ona görə də, həm Müsavatı və AXCP-ni ifşa edib gözdən salan jurnalistlərə, həm də Avropada və ABŞ-da "youtube" üzərində kanal açmış mühacirlərə hücumlar edir, onları "boğmağa" çalışır. Aydınlaşan







məqam odur ki, Əli Kərimli də, müxalifətin yeganə ruporu olaraq, ancaq "Osmanqızı" və "Azərbaycan saatı"nı görmək niyyətindədir.

* * *

Bir sözlə, hazırda müxalifət düşərgəsində nüfuz savaşı gedir. Diqqətinizə təqdim etdiyim məlumatlardan və faktlardan da müəyyən edə bilərsiniz ki, bu savaşların və qarşıdurmaların episentrində AXCP sədri Əli Kərimli durur. Görünür ki, onun maraqlarına və planlarına kim mane olursa, o, hədəfə çevrilir, trol hücumlarına məruz qalır, təhqir və təhdid edilir. Özü, müavinləri, "Milli Şura"nın koordinasiya üzvləri "REAL" və Müsavatı, Qənimət Zahid və Sevinc Osmanqızı isə mühacirləri, bloggerləri hədəfə götürüblər. Deyəsən, AXCP yenidən müxalifəti monopoliyaya almağa cəhd göstərir və bu prosesdə ən böyük qırğı da elə Əli Kərimlidir...

***Ramil Vəlibəyov,***
***YAP Nizami RT GB sədrinin müavini,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

## Kiyevdə GUAM ölkələri arasında əməkdaşlıq məsələləri müzakirə olunacaq

Sentyabrın 12-13-də Ukraynanın paytaxtı Kiyev şəhərində GUAM-ın Milli Əlaqələndiricilər Şurasının 49-cu iclası keçiriləcək. GUAM-ın Milli Əlaqələndiricilər Şurasından bildiriblər ki, iclasın ilk günü quruma üzv olan ölkələrin ekspertləri səviyyəsində müzakirələr aparılacaq. GUAM çərçivəsində siyasi, iqtisadi əməkdaşlığın perspektivləri, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin gücləndirilməsi müzakirə olunacaq. Sentyabrın 13-də isə GUAM-a üzv olan ölkələrin Xarici İşlər nazirlərinin müavinlərinin iştirakı ilə iclasın rəsmi açılışı olacaq. Toplantıda Azərbaycanı Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev təmsil edəcək. İclasın sonunda protokol imzalanacaq.

## Opera və Balet Teatrı mövsümü "Koroğlu" ilə açacaq

Sentyabrın 19-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı mövsümü Ü. Hacıbəylinin "Koroğlu" üçpərdəli operası ilə açacaq. Teatrdan bildirilib ki, Ü. Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində təqdim olunacaq səhnə əsərində Koroğlu obrazını Əməkdar artist Ramil Qasımov canlandıracaq. Bundan başqa, səhnə əsərində digər rolları teatrın aparıcı solistlərindən Əməkdar artistlər Afaq Abbasova (Nigar) Cahangir Qurbanov (Həsən xan), Xalq artistləri Əli Əsgərov (İbrahim xan), Əkrəm Poladov (Alı kişi), Fidan Hacıyeva (Xanəndə qız), solist Taleh Yahyayev (Ehsan paşa) və başqaları ifa edəcək. Operanı Əməkdar artist, dirijorların beynəlxalq müsabiqələrinin laureatı Əyyub Quliyev idarə edəcək.

# YAP Tərtər rayon təşkilatı müşavirə keçirib



Dünən YAP Tərtər rayon təşkilatında ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirədə çıxış edən YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçərək ölkə iqtisadiyyatının dəfələrlə artdığını, bunun sayəsində dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradıldığını, əhalinin rifah halının yüksəlməsi istiqamətində gərəkli addımların atılmasına münbit şəraitin formalaşdığını qeyd edib.

R.Şabanov onu da bildirib ki, cari ildə ölkəmizdə bələdiyyə seçkilərinin keçirilməsi ərəfəsində ciddi surətdə hazırlıq işlərinə başlanılmalı, bütün imkanlardan səmərəli şəkildə istifadə edərək seçkilərdə YAP namizədlərinin qələbəsinin təmin edilməsinə qüvvələr səfərbər edilməlidir.

Müşavirədə iştirak edən YAP rayon təşkilatının şura üzvü, rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək bildirib ki, Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun və xüsusi çəkisinin artmasından narahat olan anti-Azərbaycan qüvvələrin ölkəmizin inkişafını və müstəqil siyasət yürütməsini həzm edə bilmədiklərindən Azərbaycana qarşı qarayaxma kampaniyası apardıqlarını bildiriblər. Qeyd ediblər ki, çox təəssüfedicidir ki, bu çirkin əməllərdə radikal müxalifət sosial



şəbəkələrdə həmin qüvvələrlə bir cəbhədə yer alaraq, düşmən dəyirmanına su tökmək yolunu tutmuşdur. Odur ki, hər bir vətənpərvər ruhlu vətəndaş ölkəmizə qarşı yönələn çirkli oyunları neytrallaşdırmaq üçün ölkəmizin hərtərəfli inkişafından, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlardan dəyərli faktlar kimi istifadə edərək, virtual aləmdə onların layiqli cavablarını verməlidir.

Sonra müşavirədə bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar ərazi ilk partiya təşkilatlarına lazımi tövsiyə və tapşırıqlar verilib.

**R.KAMALQIZI**

# Elçin Mirzəbəyli: Yaranmış problem Ermənistanı investisiyalar üçün cəlbedici olmayan ölkəyə çevirir

***Ermənistan ərazisində qızıl ehtiyatlarına görə ikinci sırada duran "Amulsar" mədəninin istismarına lisenziya 2015-ci ildə "Lydian Armenia" şirkətinə verilib. Prosesdə Sarkisyan hakimiyyəti və Amerika-Ermənistan Ticarət Palatası fəal şəkildə iştirak ediblər. Paşinyan hakimiyyətə gəldikdən sonra isə hələ mədənin istismarına başlamayan "Lydian Armenia" şirkətində 3 audit yoxlaması aparılıb. Buna baxmayaraq, "Lydian Armenia" şirkətinin əməkdaşları hələ də mədənin ərazisinə buraxılmırlar.***



Siyasi ekspert Elçin Mirzəbəyli AZƏRTAC-a açıqlamasında bildirib ki, Amerika-Ermənistan Ticarət Palatası Ermənistanın baş naziri Nikol Paşinyana ünvanladığı məktubda onun bu məsələdə manipulyativ mövqe sərgilədiyinə eyham vurur. Yaranmış problem birmənalı olaraq neqativ mesajlar verir və Ermənistanı investisiyalar üçün cəlbedici olmayan ölkəyə çevirir. Bu vəziyyət sübuta yetirir ki, xarici investorlar müdafiəsizdir və ədalətsiz münasibətlə qarşılaşırlar.

Ekspert vurğulayıb ki, yaranmış vəziyyət Nikol Paşinyanın Ermənistana sərmayə axınının olacağı barədə proqnoz və vədlərinin əfsanədən başqa bir şey olmadığını da sübuta yetirir. Amerika-Ermənistan Ticarət Palatasının məktubunda Ermənistanın öz öhdəliklərinə sadiq qalmayan bir dövlət olduğu xüsusi vurğulanır. Ermənistanda Amerika-Ermənistan Ticarət Palatasının təşviqi ilə 140 şirkət fəaliyyət göstərir. Palata həmin şirkətlərə də Ermənistanın investisiya üçün əlverişsiz ölkə olduğu barədə xəbərdarlıq edib və onların hüquqlarının müdafiə olunmasında problemlərin yaranacağını bildirib. Mövcud durum sübuta yetirir ki, Nikol Paşinyan nəinki vəd etdiyi kimi Ermənistana investisiya axınını cəlb etmək gücündə deyil, hətta bu günədək erməni diasporunun Ermənistana daşıdığı investisiyaları da qoruyub saxlamağı bacarmır.

E.Mirzəbəyli vurğulayıb ki, maraqlı məqamlardan biri də təkcə ABŞ investorlarının deyil, hətta Rusiya və Avropa İttifaqı ölkələrinə aid olan şirkətlərin də Ermənistanı tərk etmələri və investisiyalarını geri çəkmələridir. Beləliklə, Ermənistanın siyasi və diplomatik müstəvidə etibarsız ölkə statusu sürətlə iqtisadi sferaya daşınır ki, bu da işğalçı ölkənin yeni hakimiyyətinin də verdiyi vədlərin və gurultulu proqnozların əsassız olduğunu təsdiqləyir.

# "AzerTelecom" "Caspian Energy Forum Baku-2019"-a tərəfdaş qismində dəstək verir

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkəti sentyabrın 19-da Bakı şəhərində keçiriləcək "9-cu Beynəlxalq Caspian Energy Forum Baku - 2019" tədbirinə tərəfdaş qismində dəstək verir. Bu barədə şirkətdən verilən məlumatda qeyd olunub.***

"AzerTelecom" şirkətinin baş direktoru Fuad Allahverdiyev bildirib ki, şirkət uzun illərdir "Caspian European Club"u dəstəkləyir və təşkilatla sıx əlaqələrə sahibdir. "Sayca 9-cu olaraq keçiriləcək "Beynəlxalq Caspian Energy Forum Baku-2019" tədbirinin tərəfdaşı olmaqdan məmnunuq. Forum dövlət və özəl sektor, həmçinin beynəlxalq və regional təşkilatlardan olan çoxsaylı nümayəndələri bir araya gətirəcəkdir. Əminik ki, forum ən müxtəlif sahələrdə faydalı fikir mübadiləsinin, müzakirələrin aparılması və yeni biznes əlaqələrinin qurulmasına öz töhfəsini verəcəkdir" - deyə Fuad Allahverdiyev qeyd edib.

"Caspian Energy Club"un birinci müavini və baş icraçı direktoru Telman Əliyev bildirib ki, ölkənin inkişaf edən telekommunikasiya sektorunda qabaqcıl şirkətlərdən biri olan "AzerTelecom" şirkəti ilə "Caspian European Club" arasında artıq uzun müddətdir səmərəli əməkdaşlıq əlaqələri vardır və bu əlaqələr davamlı şəkildə inkişaf edir. Şirkət "Caspian European Club" tərəfindən keçirilən ən müxtəlif tədbirlərdə yaxından iştirak edir və əməkdaşlığa öz töhfəsini verir.

"9-cu Beynəlxalq Caspian Energy Forum Baku - 2019" "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illik və "Caspian Energy" jurnalının fəaliyyətinin 20 illik yubileyinə həsr olunub. Forumun işində dünyanın 50 ölkəsindən 1500-dən çox nümayəndə iştirak edəcək və forum üç sessiyadan ibarət olacaq. Birinci sessiya neft-qaz sektorunun, sənayenin inkişafı mövzusuna və Azərbaycanda infrastruktur layihələrin həyata keçirilməsinə həsr olunacaq. İkinci sessiyada maliyyə sektorunun inkişafı məsələsinə toxunulacaq və Azərbaycanda investisiyalaşdırma imkanları barədə ətraflı danışılacaq. İkinci sessiyada əsas diqqət kiçik və orta biznesin inkişafına yönəldiləcək. Üçüncü sessiyada İKT layihələrinin uğurla həyata keçirilməsi, Azərbaycanın aqrosənaye kompleksinin və turizm potensialının inkişafı barədə geniş hesabat veriləcək.




Caspian European Club barədə: Sıralarında dünyanın 50 ölkəsindən 5 mindən artıq şirkət və təşkilatı birləşdirən "Caspian European Club" 2002-ci ilin iyununda yaradılıb. Caspian European Club-un mənzil-qərargahı Bakıda (Azərbaycan) yerləşir. "Caspian European Club"un həmçinin Gürcüstan və Qazaxıstanda rəsmi nümayəndəlikləri, ABŞ və Almaniyada səlahiyyətli nümayəndələri var.

"Caspian European Club"un yaradıcısı və ilk Sədri Azərbaycan Respublikasının Prezidenti Zatiliəri cənab İlham Əliyevdir.

# Gültəkin Hacıbəyli kimin "şinelində"

## Və ya "müxalifətçi" libası geyinmiş çılpaq qadın..."

***Bəlkə də təəccüb edəcəksiniz. Nə deməkdir "kimin şinelində?" Cavab bəllidir. AXCP-nin "primadonnası" Gültəkin Hacıbəyli o, G.Hacıbəylidir ki, hər sifətdə ola bilir. G.Hacıbəylinin xisləti nankorluq və satqınçılıq olub. G.Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Əlac qışqırmağa qalıb. Neyləməlidir? Qışqırmalıdır... Yazıq o boğaza - nə qədər qışqırmaq, böhtan atmaq olar? Ancaq nə faydası?! Çünki bu siyasətbazlar, əslində, müxalifliyi bir əqidə kimi görmürlər, xaricdəki Azərbaycan əleyhdarlarının, bəzi siyasi dairələrin şirnikləndirici təkliflərindən, maliyyələrindən yararlanmaq vasitəsi kimi görürlər. Kiçik bir xatırlatma edim ki, buna misal olaraq, ölkəyə qrant, yardım gəlməsinə nəzarət güclənəndən sonra əliqolu yanına düşən Əli Kərimli öz müavini Gözəl Bayramlını Gürcüstana göndərə-göndərə saldı tora.***

"MBH" sədri Lalə Şövkətin AXCP sədri Ə.Kərimli haqqında dediyi sözləri xatırlatmaq istərdim: "Əli Kərimli kimilər heç vaxt kişi olmayıb. Əsl kişi satılıb-satmaz".

### Pərçimlənmişlər "bir" olmaq istədilər, amma...

Son günlər G.Hacıbəyli ilə "REAL"-ın icra katibi Natiq Cəfərli arasında söz savaşları baş verdi. Ancaq bu savaş o qədər böyüyüb ki, hələ də AXCP sədri Ə.Kərimlini "Milli Şura"sına pərçimlənmiş G.Hacıbəyli tumanını başına çəkərək başlayıb, nə başlayıb. "Milli Şura", AXCP və G.Hacıbəylinin sosial şəbəkələrdə "REAL"-a qarşı hücumundan sonra ara qarışıb-məzhəb itib. İttihamların havada uçuşduğu bu dava həm də bir çox mətləblər, xüsusilə, "Milli Şura"nın real elektoratının "trol dəstəsi"ndən başqa, bir şey olmadığını ortaya çıxardı.

### Natiq Cəfərli: "Milli Şura"dakılar, o cümlədən, Gültəkin kimilər, fikri olub - beyni olmayanlardır"

"REAL"-ın icra katibi N.Cəfərli bəyan edib ki, bu, o çamurda batmış G.Hacıbəylidir ki, pula görə həyanın nə demək olduğunu belə anlamır: "Ona görə də "REAL"-a qarşı qarayaxma və çamuratma kampaniyasını ərşə qaldırıb".





N.Cəfərli indiyə qədər dəfələrlə gündəmə gələn Ə.Kərimlinin "trollar"ına da işarə vurub: "Fikri olub - beyni olmayan bir qrup adam (sayları 100-ü keçmir, sadəcə hər birinin də 4-5 saxta profili var) küy yaradaraq fikir formalaşdırmağa çalışırlar. Bu kampaniya birbaşa "MŞ" rəhbərliyinə daxil olan adamlar tərəfindən qızışdırılır, idarə olunur və yönləndirilir. Həmin siyasi düşüncə tərzinin 25 ildir daşıyıcısı olanlar zaman-zaman eyni kampaniyanı ya öz təşkilatlarının içində olanlara, ya da digər siyasi partiyalara qarşı aparıblar. Öz partiyalarından hökumət tərəfə keçib deputat və məmur olan onlarla adam var deyə kompleksə düşüblər, fərqli düşünən görəndə sanki havalanırlar. İndi də G.Hacıbəyli elə havalanıb ki, hamını satqın adlandırır. Bu yerdə kor-kora kor deməsə, doğrudan da, bağrı çatlar".

N.Cəfərli "Milli Şura"nın "primadonnası" G.Hacıbəyliyə bütün daşları ətəyindən tökməsini məsləhət görüb. G.Hacıbəyli də "REAL"-ın sədrinə şikayət etmək istəsə də, İlqar Məmmədov susqunluğu ilə Hacıbəylinin şikayətini qulaqardına vurub, əvəzində, Sevinc Osmanqızının "xəbərçiliyini" ifşa edib: "Mən həbsdən çıxandan dərhal sonra Sevinc Osmanqızı zəng vurub "xəbərçi"liyi birinci etdi. Sənin kimilər çox xəbərçiliklər edəcək, ancaq mən də öz bildiyimi heç kimə verən deyiləm, dedim".

### "Müxalifətçi" libasında olan min sifətin nümunəsi - Gültəkin Hacıbəyli

Bəlkə utanasan. Utanmağa üz olarsa. Sosial şəbəkələrin daimi kliyenti G.Hacıbəyli, dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmadığını bir oturub, düşünürsən? Bəlkə azacıq da olsa, həya deyilən hissin var? İki gün öncə, G.Hacıbəyli "Facebook"da bir dəfə yazdığını bir də yazır. Görünür, huşsuzluq da baş verir, bu ikiüzlü mənəviyyatsızda. Yazır ki, Azərbaycan silahlanmaya 23 milyard dollar pul xərcləyibmiş! Hanı o silahlar? Bu, həmin Gültəkindir ki, deputatlıq dövründə mətbuata açıqlamalarında Azərbaycanın hərbi gücündən, əldə etdiyi ən modern silahlardan danışırdı. İndi bu silahlar Gültəkinin nəyinə lazımdır? Bax, bu, maraqlıdır.

Adamın yazığı gəlir buna. Ona görə ki, insanın Ə.Kərimlinin, İ.Qəmbərin, A.Hacılının, F.Qəhrəmanlının, İ.Məmmədovun timsalında rəzil günə düşməsi, elə də təsirli deyil. Ancaq qadının bu kökə düşməsi dəhşətdir.

### Keçmiş qayınanası: "Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə!"

G.Hacıbəylinin keçmiş qayınanası Nəhayət Məmmədova 14 ay gəlin olduğu müddətində böyük haqsızlıqlar edib, indi də həmin yoldadır: "Bu, o Gültəkindir ki, doğma əmisinə "torba" tikdi. Onun əmisi İdris Hacıyevin adına "Emil" MMC açdıraraq, rayonda 20 hektar ərazidə gips karxanasına yiyələnmişdi. Sonra qazancı bölüşdürə bilmədiklərindən, Gültəkinin təzyiqi ilə Goranboy rayon icra hakimiyyətinin məhkəmədə qaldırdığı iddia əsasında İdris Hacıyev "cəzalandırıldı", karxana əlindən alındı. Bundan sonra həmin ərazi Gültəkin Hacıyevanın atası Yunis Hacıyevin adına açılmış "Gülüstan" MMC-nin icarəsinə verildi. Doğmasına qarşı nankorluq və xəyanət edən Gültəkin xalqına, Vətəninə bu cür addımlar atar, necə ki, indi bu çirkin yoldadır. Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə, nə doğmaları?! Onun məramı-məqsədi şəxsi mənafeləri üçün insanları şərləmək, kələk gəlmək və sairdir. O, mənəvi dəyərləri itirmiş əxlaqsızdır. İkiüzlü, sürüşkən, xain, anormal G.Hacıbəyli elə Əli Kərimli, Cəmil Həsənli kimi satqınların, ikiüzlülərin yanında olar. Belələri ən ağır cəzaya məhkumdur".

**R.HÜSEYNOVA**

# Əli Kərimlinin normal cəmiyyət arasında heç vaxt yeri olmayıb

## Dəyirmi masaya dəvət almayan AXCP sədri dialoq ab-havasını zəhərləyə bilərdi

***Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalının "Siyasi partiyalar siyasi proseslərə xarici müdaxilə cəhdlərinə qarşı" mövzusunda dəyirmi masaya Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimlini dəvət etməməsinin səbəbini açıqlaması, əslində, özü-özlüyündə, bir sıra məqamları növbəti dəfə açığa çıxarmış oldu. Yəni AVP sədrinin özünün də dediyi kimi, buna səbəb Ə.Kərimlinin "siyasi mühacir" müxalifəti adlandırılanların yanında olmasıdır.***

Lakin onun digər maraqlı bəyanatı söyüş söyən qruplara bilavasitə rəhbərlik edən Ə.Kərimlini mənəviyyatına sığışdırıb, tədbirə dəvət etməməsini deməsidir.

### Əli Kərimli orada olmayıbsa, deməli ki, onun həqiqətən də, belə ümummilli məsələləri əks etdirən dialoq ortamında yeri olmayıb, yoxdur və olmayacaq

Bəli, Ə.Kərimlinin mənəviyyatsızlığı,ləyaqətsizliyi, şərəf amilindən uzaqda olması, o cümlədən, ayağısürüşkənliyi onun ölkənin iqtidarlı-müxalifətli tədbirində iştirak edən cameənin daxilində yer almamasına bariz sübutdur.

Əgər bu gün həmin tədbirdə müxalifət partiyalarını təmsil edən Qüdrət Həsənquliyev, Fazil Mustafa, İqbal Ağazadə, Pənah Hüseyn, Tural Abbaslı, Əli Əliyev, Sərdar Cəlaloğlu, Tahir Kərimli, Eldar Namazov, Qulamhüseyn Əlibəyli və adlarını çəkmədiyim digər müxalifətçilər iştirak ediblərsə, Ə.Kərimli orada olmayıbsa, deməli ki, onun həqiqətən də, belə ümummilli məsələləri əks etdirən dialoq ortamında yeri olmayıb, yoxdur və olmayacaq. Çünki bu adamlar nə qədər müxalifətçi olsalar belə, heç vaxt dövlətçilik maraqlarına zidd ola biləcək ucuz və xəyanətkar addımlara getməzlər. Bu baxımdan, baş tutmuş iqtidarlı-müxalifətli dəyirmi masanın havasının Ə.Kərimli adlı ünsürlə pozulmasına lüzum olmayıb.

### Onun ucuz həyatı yalnız populizmə, mikrofona olan ehtirasa və nədənsə, danışarkən, əzilib-büzülməyə, başını əsdirməyə həsr olunub

Başqa tərəfdən, qeyd etmək yerinə düşərdi ki, AXCP sədri dəfələrlə öz sərsəm bəyanatlarında bildirib ki, onunla olmayanlar onun düşmənidir. Çox yəqin ki, o, bu dəfə də blogerlik şakərinə uyğun olaraq, baş tutmuş tədbirə öz çirkin donunu geyindirməyə cəhdlər göstərəcək. Əlbəttə ki, müxtəlif gülünc, hətta axmaq bəhanələri ilə...

Misal üçün, deyəcək ki, onu həmin tədbirə dəvət etsəydilər belə, həmin tədbirdə iştirak etməyəcəkdi. Ya da bildirəcək ki, orada iştirak edən müxalifət partiyalarının heç biri AXCP-nin yanında nüfuza malik deyil. Yaxud iddia edəcək ki, o, həmin tədbirdə iştirak etsəydi, mütləq hansısa "arqumentlərlə" hər kəsi susduracağıydı və s. və i...

Əlbəttə, Ə.Kərimlinin istənilən ifadəsi ictimai rəydə, eləcə də mətbuatda, siyasi-ictimai çevrədə bir qram da olsa əhəmiyyət kəsb etmir. Ümumiyyətlə, onun ucuz həyatı yalnız populizmə, mikrofona olan ehtirasa və nədənsə, danışarkən, əzilib-büzülməyə, başını əsdirməyə həsr olunub. Görünür, bu cür yaşam tərzi ona kifayət qədər maddi dividend gətirib. Əbəs deyil ki, onun gül balası Türkel Kərimli Britaniyada yüksək məbləğli təhsil aldı, arvadı biznes qurdu, bu gün də həmin biznesi necə lazımdırsa inkişaf etməkdədir.

Nə isə, mövzudan uzaqlaşmayım və qeyd edim ki, Ə.Kərimlinin normal düşüncəli, sağlam ruhlu, dövlətçiliyin qorunması və inkişafı marağında olan cəmiyyət arasında heç vaxt yeri olmayıb. Və nə yaxşı ki, yoxdur da...

**Rövşən NURƏDDİNOĞLU**

# Satqının və şərəfsizin vicdanı olmaz

*Vaxtı çatanda bu şərəf və ləyaqətdən uzaq olan toplum mütləq öz əməllərinə görə cavab verməli olacaq*

***Kimdir bunlar və nəylə məşğul olurlar? AXCP və Müsavata məxsus möhür və ştamplarla maddi sübut qismində satqın və əxlaqsızların "lideri" Əli Kərimli və əli qanlı olan İ.Qəmbərin dəstə üzvlərinin xarici qüvvələrlə, maddi maraq zəminində, birləşən Azərbaycanın uğurlarına kölgə salmaq üçün hər cürə alçaqlığa qatlaşan parazitlərdir, desək azdır. Xarici ölkələrin küçələrində, zibilliklərində sülənən və erməni üfunəti verən bu iyrənc məxluqların ən öldüyü məsələ ancaq və ancaq Azərbaycanın uğurlarını kor olan gözlərinin görməməsidir ki, məhz bu səbəbdən də, bu parazitlər, guya Azərbaycanda təqib olunmaları, hüquq-mühafizə orqanları tərəfindən müxtəlif təzyiqlərə məruz qalmalarını əks etdirən saxta sənədləri Qərb ölkələrinin müvafiq dövlət orqanlarına təhvil verərək "siyasi mühacir" statusu alırlar, daha doğrusu, bəd əməllərin yolçusu "statusu"nu alırlar.***



### Satqın satqının yanında olar

Mütəşəkkil dəstə şəklində birləşərək, 2017-ci ildən etibarən, yaşamaq yox, satqınlıq etmək üçün, Avropa ölkələrində çoxşaxəli bəd əməlləri ilə "siyasi mühacir" adı altında oturan bu əxlaqsızların məqsədi fırıldaq dəzgahının hazırladığı saxta məmulatları və ya məlumatları yaymaq, ölkədə sosial sabitliyi pozmaq üçün vətəndaşları dövlət çevrilişinə çağırmaq olub.

Belə bir deyim var: taylı-tayını tapar. Elə bu gün "müxalifətçilik" adı ilə o qədər iblislər, şeytanlar qrantlara görə məsləkini, qeyrətini satırlar. Bəlkə də bu sözümə görə kimlərsə məni qınaya bilər, ancaq 30 ilə yaxındır ki, dağıdıcı müxalifətin "anası" - "dədəsi" sayılan İsa Qəmbər, Əli Kərimlini və onların yedəkçiləri olan Cəmil Həsənlini, Leyla Yunusları, Arif Hacıları... satılıb- satan görmüşük. Bir də, bu satqınlar anlamırlar ki, müxalifətdə olmaq satqınçılıq etmək deyil. Bu gün bu kəsləri müdafiə edənlər kimlərdir? Orduxan Teymurxanlı, Elşad Abdullayev, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Vidadi İsgəndərli və bu kimi siyasət rüşeymlərinin Azərbaycana qarşı sosial şəbəkələrdə böhtan dolu çıxışlar etməsi tapşırığı verilənlər ermənilərin əsl simalarıdır. Ancaq Avropa ölkələrinə sığınan söyüş və təhqiri, tərbiyəsiz ifadələri "siyasi fəaliyyət növü" sayan bu satqın parazitlər heç vaxt heç nəyə nail ola bilməyəcəklər və ola da bilməzlər. Çünki onlar hadisələrin məcrasında idarə olunan fiqurlardır. İdarə olunan isə, əsla, idarə edənin məramlarından və niyyətlərindən xəbərdar olmur. Ona görə də, o xəyalların üstünü toz basıb artıq. Yaratdıqları müxtəlif qeyri-hökumət təşkilatlarından və KİV-lərdən ibarət dayaq nöqtələrini, "5-ci kolon"u formalaşdırmağa nail olan həmin dairələrin böhtanlarını gerçək kimi qəbul etdirmək mexanizmləri də çox sadədir. Azərbaycanı ölkə və dünya ictimaiyyətinə "dəhşətli obraz"da təqdim etmək üçün satın alınan Vətən xainləri V.İsgəndərli, O.Teymurxan, T.Sadıqlı, xarakterinə uyğun psixologiyasını soyadı ilə doğruldan Həbib Müntəzir, Qurban Məmmədov, Qənimət Zahid, Sevinc Osmanqızı kimi ünsürlər də hər zaman olub. Bu kimi Vətən xainlərinin torpağına, elinə, obasına ermənidən betər qənim kəsilən namərdlərin əsl qazancı xalqın nifrətidir.

### "Siyasi mühacir" qiyafəli qrant dəllalları

Neyləsəniz də, iç üzünüz görünür. Qrant üstündə qırğına çıxan siz əxlaqsızlar, o əxlaqsızlar deyilmisiniz ki, pul məsələsində razılığa gələ bilməyəndə, bir- birinizi siyasi dəllallıqda ittiham edirsiniz. Bəlkə yalandır? Avropada yaşayan və özlərini siyasi mühacirlər adlandıran T.Sadıqlı ilə M.Mirzəlinin pul davasını nə tez unutmusunuz? Məhəmməd Mirzəlinin Tural Sadıqlını qrantları təkbaşına mənimsəməkdə ittiham etməsinin ardından, qarşı tərəfin də cavabı özünü çox gözlətmədi və Tural da bütün faktları açıb-tökdü. Bildirdi ki, bu pullar elə-belə əldə olunmur: "AXCP sədri Ə.Kərimlinin "qanunlarının" altından keçib gəlmişik. Yəni sən öz ölkənə, dövlətinə düşmən mövqedə dayanmalısan. Hər addımda bilərəkdən xalqının mənafeyinin ziddinə getməlisən. Ətrafına Azərbaycana qarşı düşmən mövqedə olan insanları və təşkilatları yığmalısan. Ölkənin müstəqilliyini, bayrağını qəbul etməyən, nəinki qəbul etməyən, bu iki ali dəyərimizə qarşı çıxan qüvvələrin liderinə çevrilməlisən. Bax, budur 30 ilə yaxın "müxalifətçiyəm" deyən AXCP sədri Əli Kərimlinin "qanunları". Biz də Ə.Kərimlinin şəxsi ambisiyalarını həyata keçirmək üçün şeytanla da işbirliyi aparmalıyıq."

Göründüyü kimi, "qozbeli qəbir düzəldər" atalar sözü AXCP sədri Ə.Kərimlidən çoxdan yan keçib. Çünki onun "siyasi karyerası" bunu deməyə əsas verir. AXCP sədrinin hansı "yuvanın quşu" olduğunu izah etməyə ehtiyac duymuruq. Faktlar və dəlillər bunu bir daha təsdiqləyir. Elə bu günlərdə "REAL"-ın sədri İlqar Məmmədova qarşı milli xəyanətkarlar statusunu qazananları, yəni Orduxan Teymurxanı, Tural Sadıqlını və Sevinc Osmanqızını öz tərəfinə cəlb etmək yolunu tutaraq, maliyyə vəsaiti ayırdığını deməklə, yanaşı, mitinqə çıxanlara arayış da vəd edib. Çünki sizlər... Ermənilərin əsl simalarısınız. Bax, budur AXCP sədri Ə.Kərimlinin iblis oyunu. Çünki tarix və onun canlı şahidləri Ə.Kərimlinin iblis xislətli hiylələrini heç vaxt unutmayacaq. Necə deyərlər, elin gözü tərəzidir və ən böyük tərəzi də, məhz odur. Sadəcə, zamanı, vaxtı çatanda bu şərəf və ləyaqətdən uzaq olan toplum mütləq öz əməllərinə görə cavab verməli olacaqlar - istər bu, istərsə də digər dünyada..!

***Rəfiqə HÜSEYNOVA***

# Qərb müxalifətə bu dəfə hansı təlimatı verib?

*Yaxud "ağa deyir sür dərəyə, sür!"*

Dağıdıcı müxalifət partiyalarının, zaman-zaman seçkiləri "boykot" edib, bu vasitə ilə xarici ağaları qarşısında xal toplama manipulyasiyaları bütün vaxtlarda nəticəsiz qalıb. İstər 1998-ci ilin prezident seçkilərində, istər 2008-də, istərsə də 2015-ci ilin parlament seçkilərində sözügedən "taktikadan" istifadə edən "liderlər" siyasi uğursuzluqları ilə həm bir-birlərinin, həm də elektoratlarının inamsızlıqlarını qazanıblar. Belə ki, bütün seçkilərdə xalqın iradəsi ilə qələbə qazanan iqtidar komandasıyla siyasi rəqabətə girməkdən çəkinən müxalifət təmsilçiləri hər dəfə özlərini sudan quru çıxarmaq üçün guya seçkilərin qeyri-şəffaf, ya da ədalətsiz keçirildiyini iddia ediblər. Buna baxmayaraq, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, müşahidələr aparan ayrı-ayrı müşahidəçi qrupları seçkilərin nəticələrini tanıyıb və legitim hesab ediblər.



### "REAL" partiyası seçkilərə qatılacağını əvvəlcədən bəyan etsə də...

Maraqlı məqam isə budur ki, nədənsə, son günlər dağıdıcı müxalif cəbhədə "boykot" məsələsinin arxa plana atılması barədə müzakirələrə start verilib. Məsələ ondadır ki, ötən həftə Müsavat partiyasının qərargahında müsavatçılarla yanaşı, AXCP, "REAL" partiyası, eləcə də, digər siyasi hərəkat təmsilçiləri bir araya gəlib, dəyirmi masa təşkil ediblər. Söhbət isə, əlbəttə ki, seçkilərlə - bələdiyyə, eyni zamanda, 2019-cu ilin payızında keçirilməsi gözlənilən parlament seçkiləri ilə bağlı olub. Digər maraqlı nüans həm də ondan ibarətdir ki, "REAL" partiyası seçkilərə qatılacağını əvvəlcədən bəyan etsə də, buna baxmayaraq, seçkilərə qatılıb-qatılmamaq müzakirələri aparan siyasi partiyaların tədbirlərində iştirak çox yəqin ki, "REAL" rəhbərliyi AXCP və Müsavatı "boykot" qərarından çəkindirməyə çalışır və bu yöndə onların üzərində söz sahibi olmağı düşünür.

### "Seçkilərə qatılın" təlimatı

Ancaq növbəti məsələ budur ki, bəlli tədbirin keçirilməsi pərdəsi arxasında radikal siyasi cinahın Qərbdəki ağalarından aldıqları tapşırığı dayana bilər - "Seçkilərə qatılın!" təlimatı...

Bir sıra siyasi ekspertlər də, məhz bu cür qənaətə gəlirlər ki, Qərb dairələri tərəfindən onlara seçkilərdə iştirakın vacib olması istiqamətində əmr verilib. Necə deyərlər, "ağa deyir sür dərəyə, sür!" Yeri gəlmişkən, ənənəvilərin "boykot" taktikası yalnız təmsil olunduqları siyasi partiyalarının imiclərinə köklü zərbələr vurmayıb, o cümlədən, partiyalararası, həm də partiyalardaxili olaraq, kifayət qədər kəskin, amansız, barışmaz, düşmənçiliyə qədər gətirib çıxaran qarşıdurmalar və ziddiyyətlər yaşanıb. Bütün bunlar isə, ötən illər ərzində, müxalifətin öz tərəfdarları qarşısında etimadının itirilməsi, azsaylı elektoratlarının isə, onlara inamsızlıqlarının artırılması faktları ilə nəticəsini tapıb.

### Seçkilərə qatılmaq müzakirələri aparmaları heç də səmimi təsir bağışlamır

İndi isə, yatıb-yatıb, birdən ayılan ənənəvilərin anidən seçkilərə qatılmaq müzakirələri aparmaları, heç də səmimi təsir bağışlamır. Xarici himayədarlarının sifarişlərini həyata keçirən qaragüruhçulara, sabah həmin ağaları desələr ki, yox, seçkilərə qatılmayıb və "boykot" taktikasını yenidən gündəmə atın, onlar bu addıma da gedəcəklər. Çünki onlar idarəedilən siyasi müxalifətdirlər və heç vaxt müstəqil şəkildə fəaliyyət göstərə bilməyiblər. Bu baxımdan, sözügedən məsələdə bir araya gəlib, hərdən bir hava çalmaları, sadəcə, düşərgənin növbəti ucuz şousu kimi qiymətləndirilə bilər.

***Rövşən NURƏDDİNOĞLU***


## Sosial şəbəkədən çox istifadə edənlər üçün "Nar"dan əla fürsət!

İnternet və sosial şəbəkədən çox istifadə edənlər üçün ən sərfəli tarif sayılan "CavanNar"-a qoşulanların sayı artmaqdadır. Belə ki, son 1 ayda ikiqat internetdən yararlanmaq imkanı verən "CavanNar" istifadəçilərinin sayı 17% artıb. Qeyd edək ki, "CavanNar 9" abunəçilərə aylıq 9 AZN ödəməklə 5 GB internet, 5GB sosial şəbəkə və 500 tarifdaxili dəqiqə verir. "CavanNar 6" isə 6 AZN ödəməklə 2 GB internet, 2GB sosial şəbəkə və 200 dəqiqə tarifdaxili danışıq verir. Tariflərə istənilən yaş qrupuna aid insanlar qoşula bilərlər.

Hər zaman müştərilərinin tələblərini nəzərə alan "Nar", "CavanNar" tarifi üçün təkliflərini daha da artırıb. Belə ki, artıq "CavanNar" abunəçilərinə əlavə internet paketləri sifariş etmək imkanı verir. Istifadəçilər tələblərinə uyğun olaraq 500 MB və ya 1GB əldə edə bilərlər.

Əlavə internet paketlərini aktivləşdirmək üçün müvafiq olaraq *777#2#YES (500MB) və *777#4#YES (1GB) kodlarını yığmaq lazımdır. Eyni əməliyyatı daha asan və qısa zamanda həyata keçirmək üçün yeni istifadəyə verilmiş "Nar+" mobil tətbiqindən də yararlanmaq mümkündür. Qeyd edək ki, əlavə internet paketlərindən aylıq abunə haqqını ödədikdən sonra istifadə etmək olar. "CavanNar" paketləri haqqında daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək mümkündür.



# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 10-13 saylı binaları üzrə 10 mənzil, həmçinin 14, 15, 16, 17, 18, 19, 20, 21 və 22 saylı binalarında yerləşən 560 mənzilin, ümumilikdə 570 mənzilin satışı 16 oktyabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 oktyabr 2019-cu il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 18 oktyabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 oktyabr 2019-cu il tarixi saat 00:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 570 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 30.01.2017-ci il tarixli 23206 nömrəli, 31.01.2017-ci il tarixli 23210 nömrəli və 17.03.2017-ci il tarixli 23364 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 10 | 441,56 | 12 | 1 | 2 | 1 | 56,87 | 70,44 | "Hovers Group" MMC / Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 10 oktyabr 2018-ci il |
| 11 | 665,32 | 9 | 2 | 2 | 3 | 54,65-55,07 | 66,91 | | |
| 12 | 441,56 | 12 | 1 | 3 | 1 | 70,46 | 84,47 | "SMT İnşaat" MMC / Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 44 | 1 aprel 2019-cu il |
| 13 | 665,32 | 9 | 2 | 2 | 5 | 54,73-55,07 | 66,91 | | |
| 14 | 1507,97 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "Caspian CLC" MMC / Bakı şəhəri, Binəqədi rayonu, keçid 1410, 6-cı mikrorayon, ev 15/2, mənzil 89 | 1 aprel 2019-cu il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 15 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 16 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "AS Tikinti" MMC / Bakı şəhəri, Nəsimi rayonu, 28 May küçəsi, ev 10, mənzil 18 | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 17 | 1507,97 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 18 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "Araz İnşaatçı" MMC / Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 19 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 20 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "MƏK-AN" MMM / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi 26N. | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 21 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 22 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə (yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin edən vətəndaşlar)**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

1 otaqlı mənzillərin qiyməti – **29 925** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **47 652** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **65 997** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | ***1 otaqlı*** | ***2 otaqlı*** | ***3 otaqlı*** |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **205-236 manat** | **284-288 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 925 | 2 992 | **26 933** |
| 2 | 47 652 | 4 765 | **42 887** |
| 3 | 65 997 | 6 600 | **59 397** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

# Əli Kərimli “siyasi məhbuslarını” artırmaq üçün manipulyasiyalara əl atır

*Və ya partiyanın Cəlilabad rayon şöbəsinin sədri Təzəxan Mirələmli nə zamandan “jurnalist” oldu?*

***Payız gəldi və hər il olduğu kimi, müxtəlif müxalifətyönlü dairələr, o cümlədən, müxalifət partiyaları ilə əməkdaşlıq edən siyasiləşmiş QHT-lər beynəlxalq təşkilatlara “siyasi məhbus” siyahıları sırımağa başladılar. Artıq ənənə şəklini almış bu kimi “siyahı” sırımaları bir reallığı ortaya qoyub ki, təqdim edilən “sənədlərin” heç biri bir-birini tamamlamır, hətta rəqəmlər belə, üst-üstə düşmür, həmçinin, “siyasi məhbusların” da adları bir-biri ilə uzlaşmır.***

Belə məqamlarda daha çox özünü həlak edən AXCP sədri Əli Kərimli və onun kərimovçu çetesidir. Xüsusilə, xarici ölkələrdə özlərini “siyasi mühacir”, “dissident” kimi təqdim edən kərimovçu dəllallar əllərinə düşən hər fürsətdən maksimum qaydada yararlanmağa cəhdlər göstərərək, hətta tanımadıqları adamları belə, ya “siyasi fəal”, ya da “jurnalist” kimi göstərib, onları “siyasi məhbus” siyahısına salıb, üzərlərindən gəlirlər, qrantlar əldə etməyə çalışırlar.

## Əli Kərimli çetesinin “sağ əli” Fikrət Hüseynlinin məqsədi nədir?

Bu adamlardan biri də Ə.Kərimlinin Avropadakı “sağ əli” Fikrət Hüseynlidir. Məsələnin mahiyyətinə gəldikdə isə, qeyd edək ki, F.Hüseynli Ə.Kərimlinin sifarişi əsasında AXCP-nin Cəlilabad rayon təşkilatının sədri Təzəxan Mirələmlinin adının “siyasi məhbus” siyahısına salınmasına çalışıb. Halbuki polisin qanuni tələblərinə uymayaraq, hüquq-mühafizə orqanlarına qarşı güc tətbiq edən T.Mirələmli avantüraçılığa yol verib, bu vasitə ilə fotolarının yayılaraq xarici diplomatik nümayəndəliklərə çatdırılmasına çalışıb. Bunun üçün isə, bir neçə səbəb var - həm xarici təşkilatlardan əldə edilən qrantlarda pay sahibi olmaq, həm də Avropaya, “siyasi mühacirliyə” doğru, necə deyərlər, yolunu açmaq.

## Əli Kərimlinin, yaxud onun adamlarının belə məsələlərdə stajlı olduqlarını da inkar etmək olmaz

Məhz bu səbəbdən, onun adı siyasi partiyanın rayon şöbəsinin sədri yerinə, “jurnalist” kimi göstərilib. Əslində, Ə.Kərimlinin, yaxud onun adamlarının belə məsələlərdə stajlı olduqlarını da inkar etmək olmaz. Çünki onlar dəfələrlə, hətta qələm tutmağı bacarmayan qaragüruhçu çetesini belə, “media adamı” qismində təqdim edərək, həm ictimai rəyi, həm də Qərbdəki sifarişçilərini aldatmağa çalışıblar. Təəssüf ki, anti-Azərbaycan dairələr belə yalanlara daha geniş donlar geyindirərək, həmin yalanlar vasitəsi ilə ölkəmizə, dövlətimizə qarşı qarayaxma kampaniyalarına start verirlər.

Onu da qeyd edək ki, polisə müqavimət göstərən T.Mirələmlinin hər hansı bir yazı-pozusunu belə internet resurslarında tapmaq mümkün deyil. Çünki ən azından, yazıları məqalələri cüzi də olsa işıq üzü görmüş tanınmayan jurnalistlərin adlarını yazdıqda, ya da axtarışa verdikdə, onların məhsulları üzə çıxır.

## “Google”də “Təzəxan Mirələmli” yazarkən...

Fakt üçün deyək ki, “Google”də “Təzəxan Mirələmli” yazdığımız zaman AXCP-yə mənsub media qurumları onu, bilavasitə AXCP-nin Cəlilabad rayon təşkilatının sədri kimi göstərirlər. Xüsusilə, onun bir neçə dəfə qanunlara tabe olmayaraq, polisə müqavimət göstərdiyinə və s. qanunsuz əməllərinə görə həbsləri barədə danışılır. Maraqlıdır, bəs onda o, birdən-birə necə “jurnalist” oldu?

Son olaraq, daha bir məsələni də qeyd edək ki, polisin ictimai asayişi pozmamağa doğru edilən çağırışına etinasız yanaşan, bu çağırışa tabe olmayan istənilən şəxs qanunun icazə verdiyi tərzdə saxlanıla bilər. Bu, onun hüququnun pozulması deyil, əslində, onun qanunları pozması deməkdir. Əlbəttə ki, müqavimət göstərərsə, polis onu saxlamalı və aidiyyatı üzrə təhvil verilməlidir. Sonrakı proses isə məhkəməlikdir. Yəni bunu uşaqdan da soruşsan, bu cavabı verər.

Bütün bunların yerinə həyasızcasına jurnalistikaya aidiyyatı olmayan və qanunlara tabe olmayan bir kəsin “əzabkeş” qismində fotolarını sosial şəbəkələrdə yayıb, vay-şivən qoparmaq, ən azından və yumşaq desək, nadürüstlükdür.




***Rövşən NURƏDDİNOĞLU***

***P.S.*** *Nadürüstlük isə başda AXCP sədri Ə.Kərimli olmaqla, F.Hüseynliyə və digər kərimovçu çetesinə aid olan reallıqdır!*

# “Pullar xərclənib, amma nəticə yoxdur”

***Anti-Azərbaycan qüvvələr “Milli Şura” təmsilçilərindən hesabat tələb edirlər Qondarma qurum olan “Milli Şura” növbəti mitinqlər keçirmək və bu mitinqlərə daha çox müxalifət partiyalarını cəlb etməyi planlaşdırır. Təbii ki, cəmiyyətdə heç bir nüfuzu olmayan AXCP sədri Əli Kərimli və “Milli Şura”nın rəhbəri Cəmil Həsənli xaricdən verilən sifarişləri və tapşırıqları yerinə yetirə bilməyəcəklər. Çünki cəmiyyət onların riyakar və dövlətçiliyə zidd fəaliyyət yolu tutduqlarını bilir. Söhbət etdiyimiz müsahiblərimizin də, birmənalı mövqeləri ondan ibarət oldu ki, əlləri xarici məkrli qüvvələrin cibində olan müxalifətin mitinq keçirmək arzusu, elə arzu olaraq qalacaq.***

## Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov: Üzdəniraq “milsiz şura”nın heç bir nüfuzu və elektoratı yoxdur “



- Müxalif ünsürlərə tapşırıq verənlər də, gözəl bilirlər ki, ölkədə nə Əli Kərimlinin və onun təmsil elədiyi qurumun, nə də Cəmil Həsənlinin və onun təmsil elədiyi üzdəniraq “milsiz şura”nın heç bir nüfuzu və elektoratı yoxdur. Bu adamlar ətraflarına, ən yaxşı halda, 1000-1500 iqtidardan narazı adamlar toplaya bilərlər ki, bunun da, ümumən, cəmiyyətin inkişafına, yaxud da dövlətçiliyin güclənməsinə qarşı yönəltmək istəklərinin reallaşmasına hər hansı təsiri ola bilməz. Sadəcə, anti-Azərbaycan qüvvələr, illərdir ki, bunlara milyonlar ötürür və verdiklərinin müqabilində, hər hansı nəticə yoxdur. İndi onlar ordan hesabat tələb edirlər, bunlar da, hesabat vermək üçün hay salırlar ki, mitinq eləyirik. Sonda mitinqə heç kim gəlməyəndə də, çıxıb şivən qoparırlar ki, ay aman, qoymayın, hakimiyyət sərbəst toplaşma azadlığını pozur, adamlara mitinqə gəlməyə imkan vermir, nə bilim, daha nələr. Ağaları da, o saat onların bu çığır-bağırını ötürəcək ermənipərəst informasiya agentliklərinə, bəzi-bəzi qeyri-hökumət qurumlarına, onlar da başlayacaqlar Əlinin və Cəmilin çaldıqları zurna sədasında rəqs eləməyə. Vəssalam! Bununla da, istəklərinə nail olacaqlar və ağalarından növbəti pul tranşı istəyəcəklər. Beləcə, özlərinin siyasi biznes bazarlarını inkişaf etdirirlər ki, istədikləri də elə budur. Kar, kor, şalvarı cırıq (yoxluqdan yox a, modabazlıqdan) Avropanın da bəzi-bəzi dairələri yayılan bu yalan məlumatları toplayacaq, Azərbaycan iqtidarına təzyiq variantı kimi çinədanlarında qoruyacaqlar ki, zamanı gələndə istifadə eləsinlər. Mən onu bilirəm ki, bir vaxt gələcək, bu zavallızlar, əməllərinə görə millət qarşısında cavab verməli olacaqlar, amma verməyə cavab tapmayacaqlar.

## “QHT.az” saytının rəhbəri, “İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə: Cəmil Həsənli ABŞ-dan sifarişlər gətirir”



- Mitinqlər keçirmək və bu mitinqlərə daha çox müxalifət partiyalarını cəlb etmək hər zaman AXCP-nin siyasi menyusunda olan bir məsələdir. Lakin məsələ ondadır ki, bir neçə dəfə bəzi partiyalar bu tora” düşüb və sonra da çox peşman olublar. Çünki AXCP rəhbərliyi özünü, həmişə olduğu kimi əsl fədakar” kimi, qələmə verib və digər partiyaları aşağılamaqdan belə çəkinməyib. Yaxın tarix buna əyani sübutdur. Əlbəttə, bu aldatma əməliyyatı baş tutsa belə, Əli Kərimlinin tərəfdarları”nın sayı 100-200 nəfər civarında arta bilir. Çünki digər müxalifət partiyalarının insan resurslarının və tərəfdarlarının sayı da Milli Şura”dan geri qalmır. Cəmil Həsənlinin ABŞ səfərindən yeni sifarişlərin və tapşırıqların olması ehtimalını yenidən gündəmə gətirir. Lakin bütün hallarda radikal qüvvələrin kütləvi aksiyalar keçirmək üçün tərəfdarları olmadığı üçün bu sifarişlərin həyata keçirilməsi üçün şərait yoxdur. Bu baxımdan, həmin qüvvələr lokal (bir neçə nəfərin iştirak etdiyi) münaqişələrin yaradılmasına cəhd edəcəklər.

***GÜLYANƏ***

# Ölkəmizdə ödənişsiz hüquqi yardım

***Bir qrup hüquqşünas və hüquq sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının iştirakı ilə Azərbaycan Hüquqşünasları Konfederasiyası təsis olunub. Konfederasiya Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb. Konfedarasiyadan cümə günü "Trend"ə bildirilib ki, təşkilatın ilk ümumi yığıncağında kofederasiyanın sədri və baş katibi seçilib. Millət vəkili, Məhkəmə-Hüquq Şurasının üzvü Əli Hüseynov AHK-nin sədri, Avrasiya Hüquqşünaslar Assosiyasiyasının sədri Nadir Adilov isə baş katibi seçilib.***

Konfederasiyanın əsas məqsədi ümumrespublika səviyyəsində hüquqşünaslar arasında inteqrasiyanı təmin etməklə, qanunun aliliyini təbliğ etmək, hüquq peşəsinin inkişafına yardım etmək, hüquqşünasların peşəkar bacarıqlarının artırılması sahəsində fəaliyyət göstərmək və hüquqşünasların fəaliyyətini əlaqələndirmək. Ölkəmizdə ödənişsiz hüquqi yardımın göstərilməsinin hüquqi mexanizmlərində bir sıra boşluqların mövcudluğu heç kim üçün sirr deyildir, xüsusilə də, hüquqşünaslar üçün. Qeyd olunan boşluqlar, əsasən, mülki, inzibati və s. işlərlə bağlıdır. Belə ki, aztəminatlı ailələrin mülki mübahisələrlə bağlı hüquqi yardımdan (hüquqi məsləhət və ya məhkəmədə təmsil olunmaq hüququndan) yararlanma imkanları məhduddur. Halbuki konstitusiyamızın 61-ci maddəsi hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun olmasına və belə yardımın, qanunda nəzərdə tutulduğu hallarda, dövlət hesabına göstərilməsinə təminat verir. Bu məqsədlə, "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 28.12.2006-cı il tarixli Sərəncamda 2007-2010-cu illərdə əhalinin hüquqi yardım almaq hüququndan daha səmərəli istifadə etməsinə kömək etmək məqsədilə, ali təhsil müəssisələrinin hüquq fakültələri nəzdində "hüquq klinika"larının yaradılması və dır. Həmçinin, qeyd olunan sənədlər Amerika Hüquqşünasları Assosiasiyasının (ABA/ROLI) Bakı nümayəndəliyinin dəstəyi ilə ingilis dilinə tərcümə olunmuşdur. Habelə, İşçi Qrupun bəzi üzvləri bu sahədə təcrübənin ümumiləşdirilməsi məqsədi ilə, ATƏT-nin Bakı Ofisinin xətti ilə Litva Respublikasına səfər də etmişlər. Cari ilin sentyabr ayında səfərin yekunlarına dair iclas keçirilmiş və tədbir çərçivəsində, hüquq ictimaiyyətinin xahişi ilə qeyd olunan sənədlərin sosial şəbəkələr vasitəsi ilə ictimai müzakirəsinin keçirilməsi planlaşdırılmışdır.

Elmi ictimaiyyətin birgə əməkdaşlığı ilə "Məhkəmə təbabəti" adlı dərslik nəşr edilib. Dərsliyin müəllifi Azərbaycan Tibb Universitetinin "Məhkəmə təbabəti" kafedrasının professoru Vüqar Məmmədovdur. Kitab Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının 13 iyun 2012-ci il tarixli qərarı ilə dərslik olaraq təsdiqlənib. Dərslik tibb və hüquq sahəsində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Eyni zamanda, bütün tibb fakültələrinin tələbələri, doktorantlar və ordinatorlar, hüquq-mühafizə orqanlarının akademiyaları və tədris mərkəzləri, hakimlər, hüquqşünaslar, müəllimlər, tədqiqatçılar və məhkəmə-tibbi ekspertləri də istifadə edə bilərlər. Dərslik dünya və Azərbaycanın məşhur alimlərinin rəyi ilə çap olunub. 1000 tirajla çap olunmuş Səyyad Kərimovun məruzəsi isə "Yeni inzibati qanunvericiliyinin nəzəri məsələləri" mövzusunda olub. Hakimlər, prokurorlar, vəkillər və məhkəmə işçiləri üçün təlim müzakirələrlə davam etdirilib. AHK-nin təşkilatçılığı ilə növbəti təlim Sumqayıt Apellyasiya Məhkəməsinin inzibati binasında keçirilib. Məhkəmə-Hüquq Şurasının, Amerika Hüquqşünaslar Assosiyasının (ABA CEELİ) və Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimləri Assosiasiyasının dəstəyi ilə keçirilən təlimin mövzusu "Azərbaycan Respublikasının Apellyasiya Məhkəmələrinin AİHM president qərarlarından istifadə praktikası" olub. Məhkəmə hakimləri üçün təlim keçirilib. Təlimdə Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi, Sumqayıt Apellyasiya Məhkəməsi, Qobustan, Qusar, Quba, Xaçmaz, Şabran, Zəngilan, Şuşa və digər rayonların məhkəmələrinin hakimləri və nümayəndələri iştirak ediblər. Tədbirdə açılış nitqi ilə Azərbaycan Hüquqşünasları Konfederasiyasının və Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin sədri Əli Hüseynli və Sumqayıt Apellyasiya Məhkəməsinin sədri, Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimləri Assosiasiyasının sədri xanım Səadət Bəktaşi çıxış ediblər. Daha sonra Sumqayıt Apellyasiya Məhkəməsi və Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin hakimləri fəaliyyətlərinə kömək göstərilməli olduğu qeyd olunmuşdur. Bənzər müddəa (yoxsul əhalinin öz hüquqları barədə maarifləndirilməsi və onlara ödənişsiz hüquqi yardım xidmətinin göstərilməsi) "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 15.09.2008-ci il tarixli Sərəncamda da göstərilmişdir. Konstitusiyamızın qeyd olunan müddəasının gələcəkdə icrasının təmin edilməsi məqsədi ilə hüquq ictimaiyyətinin, habelə, QHT-lərin də bu prosesə cəlb olunması həm zərur, həm də ki, hüquqşünas olaraq, bizlərin dövlətimiz və xalqımız qarşısında vətəndaşlıq borcudur. Məhz bununla bağlı, 2012-ci ilin fevral ayında "Azərbaycan Hüquq İslahatları Mərkəzi" İB (AHİM) və "Azərbaycan Hüquqşünasları Konfederasiyası" İB (AHK) tərəfindən ölkəmizdə, ilk dəfə olaraq, "Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsi və konsepsiya sənədinin hazırlanması üzrə peşəkar hüquqşünas və vəkillərdən ibarət İşçi Qrup yaradılmışdır. Keçən dövr ərzində, Qrup tərəfindən müvafiq qanun layihəsi və konsepsiya sənədinin düzəlişlər də daxil olmaqla, ilkin variantı hazırlanmış- dərslik pulsuz yayılır.

Azərbaycan Hüquqşünasları Konfederasiyasının (AHK) təşkilatçılığı, Məhkəmə-Hüquq Şurasının və Amerika Hüquqşünasları Assosiasiyasının (ABA CEELİ) dəstəyi ilə "İnzibati-İqtisadi Məhkəmələrin Fəaliyyəti: beynəlxalq və millli təcrübə" seminarları keçirilib. Məhkəmə-Hüquq Şurasının inzibati binasında keçirilən tədbiri giriş sözü ilə AHK İdarə Heyətinin və Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin Sədri Əli Hüseynli açıb. O, təlimin əhəmiyyətindən danışaraq, Məhkəmə-Hüquq Şurasının sonuncu iclasında qeyd olunan məsələləri bir daha tədbir iştirakçılarının diqqətinə çatdırıb. Daha sonra Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Cavid Hüseynov və 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin sədri Müseyib Hüseynov çıxış edərək, tədbirin zəruriliyini vurğulayıblar. Azərbaycan Hüquqşünasları Konfederasiyasının İdarə Heyətinin üzvü, Konstitutsiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev "Konstitusiya nəzarətinin ədalət mühakiməsinin effektivliyinin artırılmasında rolu" mövzusunda məruzə ilə çıxış edib. Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini AİHM president qərarlarının Sumqayıt Apellyasiya Məhkəməsi və Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi tərəfindən tətbiqinin faktiki vəziyyəti ilə bağlı məruzələrlə çıxış ediblər. Azərbycan Hüquqşünasları Konfederasiyasının İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının Hüquq Mühafizə orqanaları ilə iş şöbəsinin sektor müdiri, İnsan Hüquqları üzrə Avropa Məhkəməsində Azərbaycan Respublikasının nümayəndəsi Çingiz Əsgərov "Avropa İnsan Hüquqları Məhkəməsinin tətbiqi vəziyyəti" mövzusunda çıxış edib. Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini Səyyad Kərimovun çıxışı isə "Yeni inzibati qanunvericiliyin Avropa standartlarına uyğunluğu" mövzusunda olub. Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimləri Assosiasiyasının üzvü, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Həmid Həmidov "AİHM president qərarlarının Sumqayıt Apellyasiya Məhkəməsi tərəfindən tətbiqinin faktiki vəziyyəti", Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin hakimi Zaur Pirverdiyev isə "AİHM president qərarlarının Sumqayıt İnzibati-İqtisadi məhkəməsi tərəfindən tətbiqinin faktiki vəziyyəti" mövzusunda məruzə ilə çıxış ediblər. Tədbir müzakirələrlə davam etdirilib, məruzəçilər hakimlərin və məhkəmə işçilərinin suallarını cavablandırıblar. Məhkəmə-Hüquq Şurasında Azərbaycanın müxtəlif məhkəmə instansiyalarını təmsil edən 25 hakimin iştirakı ilə "Söz azadlığının müdafiəsində hakimlərin rolu" mövzusunda "dəyirmi masa" keçirilmişdir. Məhkəmə-Hüquq Şurası, Azərbaycan Hüquqşünasları Konfederasiyası və Amerika Hüquşünaslar Assosiasiyasının birlikdə keçirdikləri "dəyirmi masa"da Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü, Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının sədri Əli Hüseynov və Amerika Hüquqşünaslar Assosiasiyasının Azərbaycan üzrə direktoru David Rubino tədbirin əhəmiyyətindən danışmışlar. "Dəyirmi masa"da Amerika Hüquqşünaslar Assosiasiyasının eksperti, hüquq elmləri doktoru, professor Anthony Vinter "ABŞ-da söz azadlığının müdafiəsində məhkəmələrin rolu" mövzusunda məruzə etmiş, bu sahədə ABŞ məhkəmə işlərinə istinad etmiş, səmərəli müzakirələr aparılmışdır. Hüquqları üzrə Avropa Konvensiyasının 10-cu maddəsini əhatə edən nəşrlərə dair metodiki vasitələr təqdim olunmuşdur.Tədbirdə hakimlərə Azərbaycan Hüquqşünasları Konfederasiyası, Bakı Hüquq Mərkəzi və Avrasiya Hüquqşünaslar Assosiasiyasının Avropa Şurasının dəstəyi ilə nəşr etdirdikləri İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bülleteninin Azərbaycan dilində 1-ci və 2-ci nəşrləri pulsuz paylanmışdır.

Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK) və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı insan hüquq və azadlıqlarına dair kütləvi tirajla dörd kitab nəşr edirəcəkdir. Bu kitablar Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na dəstək məqsədi ilə nəşr olunacaqdır.

Bunlar "Qaçqın statusunun müəyyənləşdirilməsi prosedurları və meyarları üzrə təlimat", "Qaçqınların statusuna dair Konvensiya və Protokol", "Qaçqınlar, sığınacaq axtaran şəxslər və vətəndaşlığı olmayan şəxslərlə bağlı Qanunvericilik Toplusu", "Qaçqınların beynəlxalq himayəsi - yaddaş kitabçası" adlı kitablardır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 12 sentyabr

## İtkin düşən 3 yaşlı qız tapıldı

Paytaxtda itkin düşən azyaşlı tapılaraq ailəsinə təhvil verilib. Bakı şəhər Baş Polis İdarəsindən SİA-ya verilən məlumata görə, Suraxanı RPİ 31-ci Polis Bölməsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 30-da gecə saatlarında Yeni Suraxanı qəsəbəsində yaşadığı evdən naməlum istiqamətə gedərək, itkin düşən 2016-cı təvəllüdlü Nelli Ağayeva tapılaraq ailəsinə təhvil verilib. Polis əməkdaşları tərəfindən azyaşlının valideynləri ilə profilaktiki söhbət aparılıb, onun üzərində nəzarətin artırılması tövsiyə olunub.

## Rusiyanın ən gözəl qızları harada yaşayır?

“TurStat” turizm portalı 9 sentyabr - Beynəlxalq Gözəllik Günü münasibətilə ölkənin ən gözəl qadınlarının yaşadığı şəhərləri sadalayıb. SİA xəbər verir ki, portalın sosial şəbəkələrdə “Rusiyanın ən gözəl qadınları harada yaşayır?” sualı əsasında aldığı cavablara görə, bu siyahıya paytaxt Moskva başçılıq edir. Ardınca isə Sankt-Peterburq, Novosibirsk, Rostov Don sıralanır. Siyahının 5-ci yerində Yekaterinburq, 6-cı yerində isə Tatarıstanın paytaxtı Kazan qərarlaşıb. 7, 8 və 9-cu yerlər isə müvafiq olaraq Krasnoyarsk, Samara və Krasnodarın payına düşür. Soçi bu siyahıda 10-cu yerdədir.



## 65 il evli olan cütlük eyni gündə vəfat edib

Türkiyənin Amasya şəhərində 65 il evli olan cütlük eyni gündə vəfat edib. SİA xəbər verir ki, Ahmet və Həbibə Kartal cütlüyü 65 il davam edən evlilikdən sonra eyni gündə dünyasını dəyişib. Belə ki, dünən səhər saatlarında qəflətən halı pisləşən 89 yaşlı Hacı Ahmet Kartal çatdırıldığı xəstəxanada vəfat edib. Həyat yoldaşının ölüm xəbərini alan 80 yaşlı Həbibə Kartalın da halı axşam saatlarına yaxın pisləşib. O da aparıldığı xəstəxanada dünyasını dəyişib. Cütlüyün 65 il davam edən evlilikdən dördü oğlan, üçü qız olmaqla yeddi övladları var.



## Binəqədidə iki evdən və bir avtomobildən oğurluq edən şəxs tutulub

Daxili işlər orqanlarının əməkdaşları oğurluqla məşğul olan şəxslərə qarşı uğurlu əməliyyat tədbirləri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi Rayon Polis İdarəsinin 43-cü polis bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki iki evdən və bir avtomobildən məişət əşyaları və akkumulyator oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini Z.Rzayev yaxalanıb. Nəsimi Rayon Polis İdarəsinin 22-ci polis bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 9-da əcnəbi vətəndaşın 400 ABŞ dollarını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş S.Rüstəmov saxlanılıb. Hər iki faktla bağlı davam etdirilir.


## ELAN

Bakı şəhəri Yasamal rayonu ünvanında qeydiyyatda olan Əhmədov Ənvər Əbülfəz oğluna məxsus Qarabağ müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə II kurs tələbəsi Hacıyev Mahir Cəfər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## Ronaldo yeni rekorda imza atıb



“Avro 2020”nin seçmə mərhələsinin altıncı turu çərçivəsində ötən gün oynanılan Litva-Portuqaliya (1:5) qarşılaşması məşhur futbolçu Kriştiano Ronaldo üçün əlamətdar olub. Belə ki, son səfər matçında rəqib qapısına dörd dəfə yol tapan Portuqaliya millisinin kapitanı Avropa çempionatlarının seçmə mərhələlərinin vurduğu qolların sayını 24-ə çatdırıb. Kriştiano Ronaldo bu göstərici üzrə irlandiyalı Robi Kini qabaqlayıb. Avropa çempionatlarının seçmə mərhələlərində 23 qolu olan Robi Kinin rekordu səkkiz ildir yenilənmədən qalırdı. Otuz dörd yaşlı futbolçu Portuqaliya millisinin heyətində 159 oyunda 93 dəfə fərqlənib. Avropada milli komandanın heyətində ən çox oyun keçirən futbolçu İtaliya yığmasının qapıçısı Canluici Buffondur - 176 dəfə.



## “Le Parisien”: Mixael Şumaxerin huşu başındadır

Altı il əvvəl ağır kəllə-beyin travması alan yeddiqat “Formula-1” çempionu Mixael Şumaxerin huşu başındadır. “Le Parisien” nəşri xəbər verir ki, bunu 50 yaşlı idmançı bir qədər əvvəl gizli şəkildə Parisdə yerləşən Jorj Pompidu adına xəstəxananın ürək-damar cərrahiyyəsi şöbəsinə gətirilib. Bundan sonra onun səhhəti ilə ürək çatışmazlığının müalicəsi üzrə ixtisaslaşan professor Filipp Menaşe məşğul olacaq. “Bəli, o mənim şöbəmdədir. Əmin edə bilərəm ki, Şumaxer şüurlu vəziyyətdədir”, - deyə tibb müəssisəsinin əməkdaşlarından biri bildirib. Mixael Şumaxer 2013-cü ildə Fransanın Meribel dağ kurortunda xizək sürərkən yıxılaraq ciddi xəsarətlər almışdı. Beyninin hər iki yarımkürəsinin zədələnməsi ilə müşayiət olunan ciddi kəllə-beyin travması idmançının bir neçə il komada qalmasına səbəb olmuşdu. Ötən ilin qış aylarında xarici KİV-lər Mixael Şumaxerin artıq komadan çıxdığı və süni nəfəs aparatına ehtiyacı olmadığı barədə məlumat yaymışdılar.

## İtaliyada ən çox qazanan baş məşqçinin adı açıqlandı



İtaliyanın “La Gazetta Dello Sport” nəşri A Seriyasında ən çox qazanan baş məşqçilərin adlarını açıqlayıb. Belə ki, “İnter”in çalışdırıcısı Antonio Konte ən yüksək ödənişli baş məşqçidir. 50 yaşlı mütəxəssis illik 11 milyon avro maaş alır. İkinci sırada yer alan “Yuventus”u çalışdıran Mauritsio Sarri Kontedən iki dəfə az qazanır - 5,5 milyon avro. “Napoli”nin baş məşqçisi Karlo Ançelotti isə 5 milyon avro məvaciblə 3-cü sıradadır.

## Arda Turan: “Mənə böhtan atıldı”

“Başakşəhər”in futbolçusu Arda Turan İstanbul məhkəməsinin onun haqqında bu gün çıxardığı 2 il 8 ay həbs qərarına münasibət bildirib. Türkiyə mətbuatının yazdığına görə, müqavilə ilə “Barselona”ya məxsus olan yarımmüdafiəçi heç bir günahının olmadığını və məhkəmənin qərarı ilə razılaşmadığını deyib: “Sevinirəm ki, bütün bunlara son qoyuldu. Mən heç nədə günahkar deyiləm. Mənə böhtan atıldı. Mən peşəkaram və meydanda özümü sübut edərək ailəmin təminatına çalışıram”. Xatırladaq ki, Arda Turan ötən ilin oktyabr ayının 10-da gecə klublarını birində müğənni Berkay Şahinlə davada onun burnunu sındırıb, sonra xəstəxanada Berkaya silah çəkib və yerə atəş açıb.

## Boksçumuzun dünya çempionatındakı ilk rəqibi müəyyənləşib

Yekaterinburqda keçirilən dünya çempionatında Azərbaycan millisinin boksçusunun ilk rəqibi dəqiqləşib. Belə ki, çempionatda 81 kiloqram çəki dərəcəsində mübarizə aparacaq Dominqes Alfonso 1/16 finalda Qazimaqomed Calidovla (İspaniya) üz-üzə gələcək. Avropa çempionumuzun rəqibi 1/32 final döyüşündə müəyyənləşib. Aleksandar Markoviçə (Serbiya) ilk raundda qalib gələn ispaniyalı birinci mərhələdən azad olan təmsilçimizlə qarşılaşmaq hüququ əldə edib. Görüş sentyabrın 15-də keçiriləcək.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**